# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# X SESSİYASI İCLASININ

# PROTOKOLU № 71

*Milli Məclisin iclas salonu.*
*29 iyun 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 97 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.00 dəq.) |
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının vergilər naziri.

**Elman Rüstəmov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.

**Şirzad Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**İsmayıl Hüseynov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Adil Məhərrəmov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
4. Məşğulluq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).
5. Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).
6. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
7. Azərbaycan Respublikasının Hesablama Palatası haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).
8. "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensi-

yanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

9. “Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi – Dan Ulduzu – Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV və SOCAR-ın Ortaq neft şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

10. “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi ilə əlaqədar” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSİ arasında Risk xidmət Sazişinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. “İcarə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

14. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

15. “İcra məmurları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

16. “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

17. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

18. “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

20. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

21. “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

22. “Feldyeger rabitəsi orqanında xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli 682-IIQ nömrəli Qanununun ləğv edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi barədə.

23. “Feldyeger rabitəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

24. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

25. Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azər-

baycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

26. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

27. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

28. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

29. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

30. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

31. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

32. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

33. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

34. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

35. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan

Respublikası qanununun layihəsi haqqında.

36. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

37. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

38. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

39. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

40. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Samir Şərifov, Vüqar Gülməmmədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**4. Məşğulluq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**6. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Samir Şərifov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Hesablama Palatası haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Zahid Oruc

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**8. “Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında” Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
| Lehinə | 82 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

**9. “Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi – Dan Ulduzu – Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV və SOCAR-ın Ortaq**

**neft şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Valeh Ələsgərov, Tahir Kərimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**10. "Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" neft yatağının işlənməsi ilə əlaqədar" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSi arasında Risk xidmət Sazişinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**11. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Bahar Muradova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**12. "İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
| Lehinə | 81 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 82 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**15. "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**16. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**17. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**18. "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Əli Hüseynli, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 87 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**20. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**21. “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**22. "Feldyeger rabitəsi orqanında xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli 682-IIQ nömrəli Qanununun ləğv edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

**23. "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

**24. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**25. Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**26. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Res-**

**publikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov, Əli Hüseynli, Elmira Axundova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**27. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**28. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Fazil Mustafa, Fəzail Ağamalı

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

**29. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**30. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**31. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**32. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**33. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**34. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Cavid Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**35. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**36. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.12 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**37. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.12 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**38. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.24 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**39. “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.25 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**40. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*29 iyun 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.00 dəq.) |
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasımıza başlaya bilərik.

Hörmətli millət vəkilləri, bugünkü gündəlikdə 39 məsələ var idi, 1 məsələ də əlavə etdik. Keçən iclasda biz Dövlət rüsumu haqqında qanun layihəsini saxlamışıq. Dəyişikliklər olmalı idi, gəldi. 40-cı məsələ də Dövlət rüsumu haqqında qanun layihəsidir. Xahiş edirəm, onunla birlikdə gündəliyə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 90 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq edildi.

Hörmətli millət vəkilləri, gündəliyin 1-ci məsələsi "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Qanunda dəyişikliklər, 2-ci məsələsi Azərbaycan Respublikasının Vergilər Məcəlləsində dəyişikliklər, 3-cü məsələsi isə Dövlət rüsumu haqqında qanun layihələridir. Bunlar bir zərfdə gəlib.

Mən İqtisadi siyasət komitəsinin sədrinə söz verməmişdən əvvəl bir şeyi söyləmək istəyirəm ki, bugünkü iclasın gündəliyinə daxil edilmiş dövlət büdcəsinin dürüstləşdirilməsinə dair məsələ iqtisadi həyatımızda baş verən müsbət makroiqtisadi dəyişikliklərin çox yüksək səviyyədə getməsi ilə əlaqədardır. Bizə təqdim edilmiş sənədlər zərfindən göründüyü kimi, cari ilin ilk dörd ayı yüksək templərlə başa çatmışdır. Mən yalnız bir neçə rəqəmi sizin nəzərinizə çatdırmaq istəyirəm. Dörd ayın yekunlarına əsasən ölkənin valyuta ehtiyatları 43 milyard ABŞ dollarına çatmışdır. İlin əvvəli ilə müqayisədə 2,2 milyard ABŞ dolları artım olmuşdur. Dövlət büdcəsinin gəlirləri də proqnozdan yüksək, yəni 104,4 faizdir. Hesablamalar göstərir ki, əldə edilmiş artım sürəti ilin qalan dövründə də davam edəcək.

Ona görə də dürüstləşdirmə məsələsi Milli Məclisin gündəliyinə çıxarılıb. Hesab edirəm, iclası belə quraq. İlk öncə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, sonra maliyyə nazirimiz Samir Şərifov məruzə etsin

və Hesablama Palatasının rəyinə qulaq asaq. Əgər etiraz yoxdursa, buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Hörmətli cənab Sədr artıq qeyd etdi ki, 2018-ci ilin arxada qalan ayları Azərbaycanın iqtisadi həyatında böyük fəallıqla müşayiət olunmuşdur. Bu dövr, sözün əsl mənasında, Azərbaycan xalqının tarixində ən şərəfli dövr kimi yadda qalacaqdır. Xalq Cümhuriyyətinin 100 illiyi çox böyük bayram kimi qeyd olundu, Azərbaycanın müstəqillik illərində keçdiyi yola bir daha nəzər salındı, gələcək inkişafın prioritet istiqamətləri bir daha müəyyənləşdirildi.

Cənab Prezident İlham Əliyevin 100 illiklə bağlı mərasimdə qeyd etdiyi bir fikri diqqətinizə çatdırmaq istəyirdim: "Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyəsindədir. Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə artmışdır. Bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4–5 dəfə üstələyir. Yəni əgər dünyanın iqtisadi xəritəsinə baxsaq, görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan. Düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil. Məhz buna görə də inamla öz müstəqil siyasətini yeridir".

Məhz belə bir siyasətin nəticəsidir ki, 2018-ci ilin arxada qalan ayları, günləri, bir daha qeyd edim, böyük iqtisadi fəallıqla müşayiət olunur. Bu yaxınlarda Cənub qaz dəh-

lizi, TANAP kimi irimiqyaslı layihələr başa çatdırıldı. Onların reallaşması Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gündən-günə artmasını nümayiş etdirir. Qədim İpək yolunun uğurlu fəaliyyəti ilə əlaqədar irimiqyaslı işlər görülür. Bakı dəniz limanının istifadəyə verilməsi Azərbaycanın tranzit ölkə kimi nüfuzunu artıracaqdır. Ələt iqtisadi zonasının yaradılması və bununla əlaqədar çox mühüm bir qanunun qəbul edilməsi Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi işlərini daha da genişləndirəcək.

Vaxtınızı çox almaq istəmirəm. Bütün bunlar cənab Prezidentin apardığı uğurlu siyasətin, Azərbaycanın iqtisadi qüdrətinin artmasının məntiqi nəticəsidir. Dövlət büdcəsi bu cür layihələrin həyata keçirilməsində, eləcə də ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayır. Davamlı inkişaf qlobal iqtisadi böhranın təsirlərindən uğurla çıxmağa, ölkəmizin maliyyə resurslarını artırmağa imkan yaratmışdır. Qeyri-neft sektorunun davamlı inkişafı, əsas kapitala yönəlmiş investisiyaların artması, bu investisiyalarda özəl sektorun xüsusi çəkisinin artması, uzun illər tədiyyə balansındakı müsbət meyillərin qorunub saxlanılması gələcək inkişaf üçün böyük imkanlar açır, maliyyə potensialının bölüşdürülməsində dövlət büdcəsinin rolunun artmasını şərtləndirir.

Bir neçə kəlmə də dövlət büdcəsinin dürüstləşdirilməsinin şərtləri barədə deyim. Burada artıq qeyd edildi ki, Azərbaycanın dövlət büdcəsinin gəlirləri əhəmiyyətli dərəcədə neft faktorundan asılıdır. Bu da təbiidir. Bu gün dünya bazarında neftin orta qiymətinin yüksəlməsi bütövlükdə Dövlət Neft Fondunun gəlirlərinin 5,2 milyard dollar artmasına şərait yaratmış, eyni zamanda, Azərbaycanla əməkdaşlıq edən xarici şirkətlərin mənfəətini, Vergilər Nazirliyi xətti ilə vergi yığılmasını əhəmiyyətli dərəcədə

artırmışdır. Bundan başqa, cənab Prezident 2018-ci ildə Azərbaycan xalqının yaşayış səviyyəsinin, sosial infrastrukturun yaxşılaşdırılması, incə qrupların sosial müdafiəsi sisteminin daha da təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atmışdır ki, bütün bunlar da maliyyə vəsaitlərinin artmasını zəruri edir. Sadaladığım şərtlər – neftin qiymətinin yüksəlməsi, orta qiymətinin 70 dollardan da çox olması, mən bayaq qeyd etdim, Dövlət Neft Fondunun valyuta ehtiyatlarını 5,2 milyard dollar artırmışdır. Bunlar imkan verir ki, Azərbaycan dövləti daha irimiqyaslı tədbirlər həyata keçirsin.

Hörmətli Samir müəllim yəqin ki, bu rəqəmlər barədə kifayət qədər ətraflı məlumat verəcəkdir. Mən ancaq onu deyə bilərəm ki, görülmüş işlər nəticəsində, yəni dürüstləşdirmə tədbirlərinin həyata keçirilməsi nəticəsində ümumi daxili məhsulun bölüşdürülməsində Azərbaycan dövlət büdcəsinin rolu artacaqdır. Bu, çox ciddi bir məsələdir. Azərbaycanın dövlət büdcəsinin parametrləri əhəmiyyətli dərəcədə yaxşılaşacaqdır. Biz hələlik yenə də devalvasiyanın parametrlərinin mənfi nəticələrini hiss edirik. Bu artım, heç şübhəsiz ki, Azərbaycanın büdcə xərclərinin, adambaşına düşən büdcə xərclərinin də artmasına öz müsbət təsirini göstərəcəkdir.

Mən bu rəqəmləri çox az demək istəyirəm, çünki dövlət büdcəsinin gəlirlərinin formalaşmasında hazırda Vergilər Nazirliyi xətti ilə yığılan vergilər, Dövlət Gömrük Komitəsi xətti ilə yığılan rüsumlar kifayət qədər əhəmiyyət kəsb edir. Vergilər Nazirliyində böyük islahatlar aparılır, şəffaflığın artırılması istiqamətində çox ciddi addımlar atılır, sahibkarlarla, iri vergi ödəyiciləri ilə mütəmadi görüşlər keçirilir. Bütün bunlar da, heç şübhəsiz ki, gələcəkdə vergi daxilolmalarının həcmini artıracaqdır.

Şəffaflığın artırılması, əmək münasibətlərinin sağlamlaşdırılması istiqamətində hökumətin, dövlət başçısının tapşırığına əsasən atılan addımlar, şübhəsiz ki, kölgə iqtisadiyyatının xüsusi çəkisinin xeyli dərəcədə azalmasına şərait yaradacaqdır ki, bu da bizim vergi imkanlarımızı, maliyyə imkanlarımızı genişləndirəcəkdir.

Vergilər Nazirliyi xətti ilə  azalmanın səbəbləri aydındır. Bu, qəbuledilləndir, Vergilər Nazirliyi xətti ilə yığılan vergilərin gələcəkdə ümumi daxili məhsulda həcminin artmasına öz müsbət təsirini göstərəcəkdir.

Gömrük Komitəsində proqnozlar kifayət qədər uğurla icra olunur. Biz bu yaxınlarda sahibkarlarla Dövlət Gömrük Komitəsinin əməkdaşlarının birgə keçirdiyi iclasda iştirak etdik. Sahibkarlar da yaranmış şəraitdən, şəffaflığın artırılması istiqamətində görülən tədbirlərdən məmnun olduqlarını bildirirlər. Nəticədə gömrük proqnozları, gömrük rüsumları 25–30 faiz həcmində artıqlaması ilə yerinə yetirilir. Bunlar həm də Azərbaycanın potensial imkanlarını genişləndirir və ölkənin maliyyə resurslarını artırır, ən başlıcası Azərbaycanın tərəfdaş olduğu xarici ölkələrlə iqtisadi əlaqələrinin təkmilləşməsinə, şəffaflığın artırılmasına, Azərbaycanda biznes mühitinin yaxşılaşmasına, sahibkarlıqla əlaqədar neqativ halların aradan qaldırılmasına öz müsbət təsirini göstərir. Bütün bunlar dürüstləşdirmə prosesində də ətraflı nəzərə alınmışdır.

Artıq hiss olunur ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi ilə Dövlət Gömrük Komitəsi arasında sıx əməkdaşlıq, koordinasiya vardır. Ümumiyyətlə, əgər biz iqtisadi strukturlar arasında əlaqələrin təkmilləşməsini təmin etsək, meydana çıxan problemləri birlikdə müzakirələrlə həll etsək, bizim inkişaf imkanlarımız daha çox olar. Ona görə cənab

Prezidentin tapşırığı ilə birgə əməkdaşlıq qrupunun, xüsusi bir təşkilatın, strukturun yaradılması, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi Azərbaycanın iqtisadi həyatında investisiya mühitinin sağlamlaşdırmasını şərtləndirir. Bu istiqamətdə görülən tədbirlər də öz müsbət nəticəsini verəcəkdir.

Cənab Sədr, hörmətli millət vəkilləri! Müzakirələr zamanı Dövlət Neft Fondundan ayırmalar məsələsi ciddi müzakirə obyekti oldu. Bəzən deyirlər ki, Dövlət Neft Fondundan çox götürürük, az götürürük və sair. Amma bu, reallıqdır, Azərbaycanın iqtisadiyyatı son 25 ildə ilk dəfədir ki, öz təbii sərvətlərinin sahibidir və bu təbii sərvətlərdən də Azərbaycan millətinin inkişafı üçün, xalqının gələcəyi üçün, dövlətinin iqtisadi qüdrətinin artması üçün istifadə edir. Amma millət vəkilləri haqlı olaraq hər bir iclasda deyirdilər ki, Dövlət Neft Fondundan götürülən vəsaitlərin miqdarı nə qədər, hansı həddə, hansı çərçivədə olmalıdır.

Nəhayət ki, bu gün cənab Prezidentin təşəbbüsü ilə Büdcə sistemi haqqında çox gözəl bir qanun layihəsini sizinlə müzakirə edəcəyik və bu qanun layihəsi qəbul edildikdən sonra Dövlət Neft Fondundan götürüləcək vəsaitlərin miqdarı qanuna müvafiq şəkildə həll olunacaqdır. Yəni icmal büdcənin xərclərinin artırılması dövlət fondunun vəsaitləri ilə, xalis maliyyə aktivləri və sair ilə qeyd olunacaqdır. Bu, həqiqətən, Azərbaycanın cəmiyyətində, Azərbaycan iqtisadiyyatında, iqtisadi siyasətində yeni, düzgün yanaşmadır. Mən fürsətdən istifadə edərək Maliyyə Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Dövlət Neft Fonduna təşəkkürümü bildirirəm ki, bu, bizi, həqiqətən, bir çox problemlərdən azad edəcək. Artıq hesablamalar da var. Təbii ki, bu proqnozlar şərti xarakter daşıyır, ona təsir

edən amillər var, neftin bu və ya digər intervalda qiymətinin dəyişməsi və s. Ancaq büdcə sisteminə edilən dəyişikliklər gələcəkdə bizim büdcə müzakirələrimizin səmərəsinin artmasına xidmət edəcəkdir. Eyni zamanda, biz gələcək nəsillər üçün kifayət qədər vəsaitlərin toplanmasına və irimiqyaslı layihələrin, enerji tutumu, kapital tutumu az olan bir sıra sahələrin inkişafına nail olacağıq. Dövlət büdcəsinin dürüstləşdirilməsinin strukturunda elə bir göstərici yoxdur ki, onun səviyyəsi yaxşılaşmasın. Bu da yeni yanaşmanın müsbət nəticəsidir. Orta əmək haqqının artması, borclanma səviyyəsinin aşağı düşməsi, büdcə kəsirinin optimal səviyyədə saxlanılması və bütün bunların bütövlükdə Mərkəzi Bankla, manatın məzənnəsi sistemi ilə əlaqələndirilməsi çox vacib məsələlərdən biridir.

Fürsətdən istifadə edərək mən bir iqtisadçı kimi deyim ki, biz gərək ölkənin maliyyə sistemini həmişə qoruyaq. Mərkəzi Bankla Maliyyə Nazirliyi, iqtisadi strukturlar arasında elə bir əməkdaşlıq olmalıdır ki, hər addımımız ölkənin maliyyə sabitliyinin qorunması haqqında düşünməyə imkan versin. Ona görə də Mərkəzi Bankın valyuta ehtiyatlarının artması və şəffaflığının yüksəldilməsi, digər tədbirlər böyük müsbət nəticələr verir.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Əgər biz bank resurslarından, bank amilindən səmərəli istifadə etsəydik, təbii ki, göstəricilərimiz daha yaxşı olardı. Cənab Prezidentin banklar haqqında, onların fəallığının artırılması haqqında göstərişləri, çox təəssüf, hələ o qədər də yaxşı səviyyədə yerinə yetirilmir. Bizim çıxış yolumuz real sektordur, məhsul istehsalını artırmaqdır, zəif inkişaf etmiş regionlara dəstəkdir, subsidiyaların artırılmasıdır, aqrar sektora dəstəyin tarazlı olmasıdır və bu istiqamətdə dürüstləşdirmədə müəyyən tədbirlər nəzərdə tutulub. Kənd

təsərrüfatı, əsaslı xərclər, neft sektorunun gələcək inkişafı, Dövlət Neft Şirkətinin problemlərinin həlli, qazın aşağı qiymətlə satılması ilə əlaqədar kompensasiya və digər məsələlər dürüstləşmiş büdcə layihəsində öz əksini tapmışdır. Ən başlıcası ondan ibarətdir ki, əhalinin sosial müdafiəsi ilə əlaqədar olaraq dürüstləşdirmədə xeyli konkret məsələlər nəzərdə tutulmuşdur ki, bu barədə də hörmətli Samir müəllim kifayət qədər məlumat verəcəkdir.

Mən vaxtınızı çox almaq istəmirəm. Hesab edirəm ki, 2018-ci ilin büdcəsi Azərbaycanın 100 illiyinə əlavə bir hədiyyə oldu. Çox çətin şərait idi. Biz xərclərimizi, gəlirlərimizi qlobal maliyyə böhranına görə azaltdıq. Amma bu gün həmin gəlirlərin artırılması istiqamətində möhkəm baza yaradılır. Bayaq sadaladığımız layihələr, eləcə də Ələt iqtisadi zonasının istifadəyə verilməsi, bizim tranzit imkanlarımızın genişlənməsi Azərbaycan büdcəsinə əlavə vəsaitlər gətirəcək, ölkəmizin inkişafını təmin edəcək. Elə olacaq ki, biz bir neçə ildən sonra vaxtı ilə itirilmiş mövqelərimizi bərpa edəcəyik. Ona görə millət vəkillərindən xahiş edərdim ki, dürüstləşdirilmiş dövlət büdcəsinə müsbət münasibət bildirsinlər. Hörmətli Samir müəllim kifayət qədər əlavə məlumatlar verəcəkdir. Oqtay müəllim, çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Buyursun Samir Şərifov.

**S.Şərifov,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, xanımlar və cənablar! Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə müvafiq

olaraq Milli Məclisə təqdim olunmuşdur. Bu qanun layihəsində dövlət və icmal büdcələri, bir sıra gəlir və xərc maddələrinin artırılması və azaldılması, həmçinin dövlət büdcəsinin gəlir və xərclərinin tarazlaşdırılması üzrə dəyişikliklər edilməsi nəzərdə tutulub.

Hörmətli millət vəkilləri, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq ölkənin müdafiə və təhlükəsizliyinin daha da gücləndirilməsi, əhalinin həssas sosial qruplarının müdafiəsinin artırılması və digər dövlət vəzifələrinin maliyyələşdirilməsi ilə əlaqədar əlavə maliyyə təminatının formalaşdırılması zərurəti 2018-ci il dövlət və icmal büdcələrinin gəlirlərinə yenidən baxılmasını şərtləndirmişdir. Belə ki, gömrük inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı qanunvericilikdə qəbul edilmiş son qərarlar, o cümlədən bir sıra rüsumların, əsasən də, alkoqollu içkilər və tütün məmulatları üçün rüsumların artırılması, yeni aksiz dərəcələrinin tətbiqi Dövlət Gömrük Komitəsinin xətti ilə gömrük rüsumu və əlavə dəyər vergisi üzrə daxilolmaların əlavə 785 milyon manat artırılmasına imkan yaradır.

Məlumat üçün bildirim ki, cari ilin 5 ayında ixrac olunan xam neftin bir barelinin orta qiyməti 71,5 ABŞ dollarına çatmışdır. Bu gün isə bildiyiniz kimi, rüblük qiymət 78 ABŞ dollarından yuxarıdır. Həmin artım dövlət və icmal büdcələrinin müvafiq gəlir maddələrinin göstəricilərini dəqiqləşdirməyə şərait yaratmışdır.

2018-ci il üçün təsdiq olunmuş büdcə üzrə büdcə gəlirlərinin hesablanmasında, bildiyiniz kimi, neftin qiymətinin bir barel üçün 45 ABŞ dolları olacağına dair proqnozdan istifadə edilmişdir. Həmin proqnozu 10 dollar artıraraq bir barelin qiymətinin 55 ABŞ dollarına çatdırılması təklif edilir. Bunun nəticəsində Vergilər Nazirliyi xətti ilə

neft gəlirlərinin dövlət büdcəsində əks olunan daxilolmaları 500 milyon manat məbləğində artacaqdır. Bu artım, əsasən, Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici neft şirkətlərindən mənfəət vergisi qismində əlavə gözlənilən daxilolmalar hesabına proqnozlaşdırılır.

Bununla yanaşı, Dövlət Neft Fondunun icmal büdcədə əksini tapan gəlirləri də dəqiqləşdirilir və 5,6 milyard manat məbləğində artırılır. Eyni zamanda, qeyd olunmalıdır ki, Vergilər Nazirliyinin xətti ilə qeyri-neft sektoru üzrə gəlir proqnozunun təsdiq olunmuş büdcə ilə müqayisədə 1 milyard 27 milyon manat məbləğində azaldılması zərurəti yaranmışdır. Həmin zəruri dəyişiklik əvvəlki illərdə vergi ödəyicilərindən, əsasən də, qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərindən proqnozda nəzərdə tutulduğundan artıq alınmış vergi ödənişlərinin sahibkarlara geri qaytarılması və ya cari büdcə ilində ödəniləcək vergilərlə əvəzləşdirilməsi ilə bağlıdır. Nəticədə Vergilər Nazirliyi xətti ilə 2018-ci ilin dövlət büdcəsində təmin olunması nəzərdə tutulan məcburi daxilolmaların 527 milyon manat azaldılması dövlət büdcəsində öz əksini tapmalıdır. Beləliklə, təklif olunan dəqiqləşdirmələrin aparılması nəticəsində 2018-ci ilin təsdiq olunmuş dövlət büdcəsinin gəlirləri, 14 milyon manat büdcədənkənar daxilolmalar da nəzərə alınmaqla, cəmi 272 milyon manat məbləğində artırılacaqdır.

Dövlət büdcəsinin gəlirlərində dəqiqləşdirmə ilə yanaşı, büdcənin bəzi xərcləri üzrə də bir sıra əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin pensiya və sosial müavinətlərin, ünvanlı sosial yardımın, təqaüdlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və maliyyə yardımı alan təşkilatlarda çalışan işçilərin

əmək haqlarının cari ilin mart ayının 1-dən orta hesabla 10 faiz artırılması nəticəsində əlavə tələb olunan 512 milyon manat vəsaitin 384 milyon manatlıq hissəsinin dövlət büdcəsinin müvafiq ehtiyatları hesabına maliyyələşdirilməsi mümkün olsa da, qalan 128 milyon manat üçün əlavə maliyyə təminatının yaradılmasına zərurət vardır.

Möhtərəm Prezidentimizin əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti humanist addımı olaraq "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanından irəli gələn tədbirlərin maliyyə tutumu cari il üçün 58 milyon manata bərabərdir.

Dövlətin müdafiə və təhlükəsizliyinin daha da gücləndirilməsi üçün əlavə olaraq 166 milyon vəsaitin ayrılması məqsədəuyğun hesab olunur.

Dövlət Neft Şirkəti tərəfindən bəzi neft yataqları üzrə, – söhbət Ümid, Qarabağ və Babək yataqlarından gedir, – həyata keçirilən qazma işlərinin aparılması məqsədi ilə dövlət dəstəyi olaraq şirkətin nizamnamə kapitalının artırılması üçün 663 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Bununla yanaşı, Dövlət Neft Şirkəti tərəfindən idxal olunan təbii qazın "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə müvafiq müqavilə dəyərindən aşağı qiymətə satışına görə yaranmış zərərin örtülməsi üçün 300 milyon manat subsidiyanın, cəmi 963 milyon manat vəsaitin Dövlət Neft Şirkətinə ayrılması nəzərdə tutulur. Ölkənin elektrik generasiya güclərinin artırılması məqsədi ilə "Azərenerji" ASC tərəfindən imzalanmış müqavilə üzrə öhdəliklərin həyata

keçirilməsindən ötrü dövlət dəstəyi olaraq səhmdar cəmiyyətin nizamnamə kapitalının artırılması üçün dövlət büdcəsinə 81 milyon manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulur. Şərq–Qərb dəmir yolu dəhlizinin, Bakı-Böyük Kəsik xəttində rabitə–işarəvermə sisteminin yenidən qurulması ilə bağlı “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması üçün 100 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Eyni zamanda, avtomobil yolları infrastrukturunun tikintisi və yenidən qurulması, həmçinin ona xidmətlə bağlı xərclərin tənzimlənməsi üçün “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun gəlir və xərclərinin 39 milyon manat artırılması nəzərdə tutulur.

Kənd təsərrüfatına dövlət qayğısının artırılması, o cümlədən ölkədə ərzaq təhlükəsizliyinin daha da yaxşılaşdırılması üçün 98 milyon manat vəsait nəzərdə tutulur. Həmin vəsait, əsasən, kənd məhsullarının istehsalçılarına satılan mineral gübrələrə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddinin 50 faiz, həmçinin su resurslarından səmərəli istifadəni təmin etmək üçün effektiv suvarma sistemlərinin, o cümlədən Pivot suvarma sistemlərinin tətbiqi üçün həmin sistemlərin alınması ilə bağlı “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə yönəldiləcək xərclərin maliyyələşdirilməsinə ayrılır. Bununla yanaşı, Şəmkir kanalının suvermə qabiliyyətinin artırılması və Abşeron magistral kanalının yenidən qurulması işlərinin aparılması üçün Meliorasiya və Su Təsərrüfatı ASC-yə dövlət investisiya proqramı xətti ilə 15 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Fövqəladə halların nəticələrinin daha çevik aradan qaldırılması, o cümlədən yanğından mühafizə tədbirlərinin gücləndirilməsi üçün müvafiq maddi-texniki bazanın müa-

sir avadanlıqlarla təchiz edilməsi üçün 20 milyon manat, turizmin inkişafı üçün 20 milyon manat, şəhər və rayon mərkəzlərində, – əsasən, regionlardan söhbət gedir, – 14 mərtəbəli yaşayış evlərinin dam örtüyünün mərhələlərlə dəyişdirilməsi üçün 21 milyon manat, külək turbinlərinin istismara hazırlanması, paylayıcı şəbəkəyə qoşulması və intellektual idarəetmə və abonent məlumatlarının informasiya bazasının gücləndirilməsi üçün 10 milyon manat məbləğində vəsaitin "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılmasına yönəldilməsi nəzərdə tutulub.

Bakı şəhərinin şəhərsalma və arxitektura planının yeni layihəsinin hazırlanması üçün 9 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Müasir tələblərə cavab verən xüsusi gömrük avadanlığının alınması, eyni zamanda, ekoloji vəziyyətin yaxşılaşdırılması işlərinin davamı olaraq çuxur, dərə və gölməçələrin, keçmiş Yod-brom zavodunun lay suları ilə çirklənmiş ərazisinin ekoloji yaxşılaşdırılması, Babək prospektində su və kanalizasiya xətlərinin və bəzi təşkilatların maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı xərclərə cəmi 236 milyon manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulur. Büdcə təşkilatlarının büdcədənkənar xərclərinin artırılması üçün əlavə olaraq 39 milyon manat vəsait proqnozlaşdırılır. Vəsait, əsasən, Müdafiə Nazirliyinə, Dövlət Gömrük Komitəsinə və "ASAN" xidmətə ayrılacaq.

Yuxarıda qeyd olunan istiqamətlər üzrə ayrılması nəzərdə tutulan vəsaitin məcmu tutumu 2 milyard 53 milyon manat təşkil edir. Bu xərclərin maliyyələşdirilməsinin dövlət büdcəsinin əlavə 272 milyon manat gəlirləri, Dövlət Neft Fondundan dövlət büdcəsinə təsdiq olunmuş transfertin 1 milyard 750 milyon manat və dövlət büdcəsi

kəsirinin 31 milyon manat məbləğində artırılması hesabına təmin olunması nəzərdə tutulur. Dövlət Neft Fondundan dövlət büdcəsinə əlavə transfert olunan məbləğ, əvvəl də qeyd etdiyim kimi, fondun dürüstləşmədən sonra formalaşacaq əlavə gəlirlərinin 31 faizini təşkil edir. Büdcə kəsirinin əlavə 31 milyon manat artımı isə vahid xəzinə hesabının 2018-ci il yanvarın 1-ə olan qalığı hesabına təmin olunacaqdır.

Beləliklə, 2018-ci il dövlət büdcəsinin gəlir və xərcləri üzrə aparılacaq dəqiqləşdirmə nəticəsində təqdim olunmuş qanun layihəsində 2018-ci il dövlət büdcəsinin gəlirlərinin 2 milyard 22 milyon manat artırılaraq 22 milyard 149 milyon manata çatdırılması nəzərdə tutulur ki, bu da təsdiq olunmuş proqnoza nisbətən 10 faiz çoxdur. Qanun layihəsində 2018-ci il dövlət büdcəsi xərclərinin 2 milyard 53 milyon manat artırılaraq 23 milyard 100 milyon manata çatdırılması öz əksini tapmışdır. Bu, cari il üçün təsdiq olunmuş dövlət büdcəsinin xərclərinə nisbətən 9,8 faiz çox deməkdir. 2018-ci il üçün dövlət büdcəsinin kəsiri təsdiq olunmuş göstəriciyə nisbətən 31 milyon manat artırılaraq 951 milyon manat məbləğinə çatdırılır ki, bu da cari ilin sonuna gözlənilən ümumi daxili məhsulun 1,3 faizinə bərabər olacaqdır.

Yenidən baxılacaq 2018-ci il icmal büdcəsinin gəlir və xərcləri üzrə göstəricilərdə də dəyişikliklər baş verəcəkdir. 2018-ci il icmal büdcəsinin gəlirləri 4 milyard 19 milyon manat və ya təsdiq olunmuş büdcəyə nisbətən 16,7 faiz artaraq 28 milyard 125 milyon manat, icmal büdcənin xərcləri isə 1 milyard 639 milyon manat və ya təsdiq olunmuş büdcəyə nisbətən 6,6 faiz artaraq 26 milyard 575 milyon manat məbləğində proqnozlaşdırılır. Yenidən baxılmadan sonra icmal büdcənin təsdiq olunmuş 831 mil-

yon manatlıq kəsiri 1 milyard 550 milyon manat məbləğində profisitlə əvəzlənəcəkdir.

Hörmətli millət vəkilləri! Göründüyü kimi, 2018-ci il dövlət büdcəsinə yenidən baxılmasının əsas hədəfi Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin ölkə iqtisadiyyatının şaxələndirilməsi və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində həyata keçirdiyi siyasətin davam etdirilməsi üçün dövlət və icmal büdcələri vasitəsi ilə əlavə maliyyə təminatının yaradılmasıdır. Əminəm ki, hörmətli millət vəkilləri bu dəyişiklikləri bəyənib təqdim olunmuş qanun layihəsinə müsbət yanaşacaqlar. Diqqətinizə görə təşəkkür edirəm.

Hörmətli cənab Sədr, büdcə zərfinə, eyni zamanda, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının "Dövlət rüsumu haqqında" qanununda dəyişikliklər edilməsi nəzərdə tutulur. Həmin dəyişikliklər qeyd etdiyim artımların, əsasən, Dövlət Gömrük Komitəsi xətti ilə həyata keçirilən daxilolmaların artırılmasına şərait yaradır. İcazənizlə, bu qanunun əsas parametrləri barədə məlumat vermək istərdim. Aksiz markaların verilməsi ilə əlaqədar "Dövlət rüsumu haqqında" Qanunda qeyd olunan hüquqi hərəkətlərə uyğun olduqda Vergi Məcəlləsinə təklif olunan dəyişiklərlə əlaqədar gömrük ödənişlərindən yayınmanın azaldılması məqsədi ilə fiziki şəxs tərəfindən fərdi istehlak üçün aksiz vergisindən azad olunmaqla gətirilən alkoqollu içkilərin həcminin 3 litrdən 1,5 litrədək, yəni iki dəfə azaldılması, siqaretlərin isə 600 ədəddən 200 ədədədək, yaxud 3 dəfə azaldılması nəzərdə tutulur. Aparılan təhlillər göstərir ki, bu, beynəlxalq praktikaya uyğundur və bizim gömrük ərazimizin müdafiəsinə yönəlmişdir.

Digər tərəfdən isə son illər ərzində cənab Prezidentin

həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycanda idxalın qəlizləşdirilməsi istiqamətində nəzərəçarpan addımlar atılır və bunların vacib istiqaməti Azərbaycanda daxili içkilər sənayesinin inkişaf etdirilməsidir, eyni zamanda, tütün məmulatının istehsal olunmasıdır. Bu baxımdan həmin tədbir bir tərəfdən dövlət büdcəsinin gəlirlərinin artırılmasına şərait yaradır, digər tərəfdən isə hesab edirik, milli istehsalımızın qorunmasına da vacib töhfə olacaqdır. Bunları nəzərə alaraq büdcə zərfinə daxil olan bu qanunlarda dəyişikliklərin dəstəklənməsinə dair də rəy bildirməyiniz xahiş olunur. Büdcədə dəyişikliklərlə bağlı bu qədər.

**Sədrlik edən.** Sağ olun, Samir müəllim. Dürüstləşdirmə ilə əlaqədar Hesablama Palatası da öz rəyini yazıb, sizə də paylanmışdır. Vüqar müəllim, əgər sözünüz varsa, qısa.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli Sədr, hörmətli millət vəkilləri, xanımlar və cənablar! İlk olaraq qeyd edim ki, müzakirə olunan qanun layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq və həmin qanunla müəyyən edilmiş məlumatlar əlavə olunmaqla təqdim edilmişdir. Dövlətin əsas planına, dövlət büdcəsinə dəyişikliklər bir sıra iqtisadi və qeyri-iqtisadi amillərin təsiri ilə formalaşır. Neftin qiymətində volatilliklər büdcə planlaşdırılması və büdcə proqnozunun icra edilməsi səviyyəsinə təsir edən mühüm iqtisadi amildir. Bu səbəbdən 1998-ci ildə dünya bazarında neftin qiymətinin azalması, 2008–2009-cu illərin maliyyə və iqtisadi böhranı, 2014–2016-cı illərdə dünya bazarında neftin qiymətinin aşağı düşməsinin yaratdığı büdcə fəsadları dövləti qeyd edilən sənədə təkrar baxmağa, həmçinin büdcə planlaş-

ması və icrası mərhələlərində ehtiyatlı davranmağa sövq etmişdir. Eyni zamanda, cari ilin ötən dövründə həm dünyada, həm də respublikamızda iqtisadi sahədə bir sıra müsbət meyillər müşahidə edilmişdir ki, məhz bu amillər də əsas makro göstəricilərin dinamikasına təsir göstərmişdir.

2018-ci ilin ilk 5 ayında neftin orta qiyməti dövlət büdcəsində ilkin nəzərdə tutulmuş göstəricidən 71 faiz, yenidən baxılan dövlət büdcəsində nəzərdə tutulmuş göstəricidən isə 40 faiz çoxdur. Son aylarda müşahidə edilən meyillər, həmçinin geosiyasi proseslər dövlət büdcəsində neftin qiymətinin yenidən 55 dollar səviyyəsində proqnozlaşdırılmasının obyektiv səbəbdən irəli gələn və ölkənin valyuta ehtiyatlarının qorunmasına xidmət edən ehtiyatlı yanaşma olduğunu da vurğulamaq imkanı verir. Dünya bazarında neftin qiymətinin kəskin şəkildə dəyişməsi, həmçinin dövlət maliyyəsi sahəsində aparılan islahatların hədəfləri ilə üst-üstə düşməsi baxımından ölkədə makrofiskal bazanın möhkəmləndirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir.

2018-ci ilin yanvar–may aylarında əvvəlki ilin eyni dövrünə nisbətən ümumi daxili məhsul 1,1 faiz çox istehsal edilmiş, iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,9 faiz artmış, neft sektorunda isə sabit qalmışdır. Nominal ifadədə neft sektorunda 28,1 faiz, qeyri-neft sektorunda isə 5,7 faiz artım müşahidə edilmişdir. 2018-ci ilin ötən dövründə ölkənin tədiyə balansının yaxşılaşdırılması şəraitində strateji valyuta ehtiyatları artaraq xarici dövlət borcunu dəfələrlə üstələmişdir.

Hörmətli millət vəkilləri! Təklif olunan dəyişikliklərlə dövlət büdcə gəlirlərinin 22,1 milyard manat məbləğinə-

dək artırılması nəzərdə tutulur ki, bu da gəlirlərin ümumi daxili məhsulda payının 29,6 faizə qədər artmasına şərait yaradacaq. Dövlət büdcəsi gəlirlərinin tərkibində əlavə dəyər vergisinin malların idxalı əməliyyatları üzrə artması, ölkə ərazisində malların təqdim edilməsi əməliyyatları üzrə isə azalması meyillərinin cari ilin icrasında da təsirləri müşahidə olunur ki, bu da vergi orqanları üzrə təsdiq edilmiş müvafiq proqnozların icra olunmaması riskini artırır. Ümumiyyətlə, ölkə üzrə istehlakın davamlı artımı şəraitində 2016-cı ildən etibarən dövlət büdcəsinə təmin olunan əlavə dəyər vergisinin gömrük orqanları üzrə artması, vergi orqanları üzrə isə azalması dinamikası əlavə dəyər vergisi üzrə vahid inzibatçılıq modelinin tətbiqini zəruri edir.

Qeyd edim ki, Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında qanun layihəsinə dair Hesablama Palatasının rəyində vergi orqanları tərəfindən dövlət büdcəsinə təmin olunan gəlirlər üzrə qeyri-neft sektorundan daxilolmaların tərkibində rezident müəssisələrin əlavə dəyər vergisi və mənfəət vergisi üzrə proqnozların tam şəkildə əsaslandırılmaması barədə qeydlər öz əksini tapmışdır. Eyni zamanda, cari dövrdə gəlirlərin icra vəziyyəti, bəzi tədiyə növləri, malların ixracından gömrük rüsumları, Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt qiyməti ilə topdansatış qiymətləri arasındakı fərqdən yığımlar dövlət zəmanəti ilə alınan borcların təminat fonduna daxilolmaları üzrə potensialın mövcudluğunu və bu tədiyələrin ilin sonu üçün göstəricilərinin artıqlaması ilə icra edilməsini deməyə əsas verir.

Dövlət büdcəsinin xərcləri 23,1 milyard manat məbləğində nəzərdə tutulur. Dövlət büdcəsi xərclərinin funk-

sional təsnifat üzrə 10 bölmə üzrə artım nəzərdə tutulmuş, 4 bölmə üzrə dəyişiklik aparılmamış, ən çox artım isə 1,1 milyard manat və ya 5,7 dəfə olmaqla iqtisadi fəaliyyət bölməsi üzrə təklif edilmişdir. Proqnozlaşdırılan artım ilkin təsdiq edilmiş büdcə layihəsində nəzərə alınmayan xərclərin yenidən baxılan büdcəyə daxil edilməsi ilə bağlıdır. Qeyd edək ki, təklif olunan artım funksional təsnifatın xarakterinə tam uyğundur. Ümumiyyətlə, təqdim edilmiş məlumatların təhlili göstərir ki, iqtisadi fəaliyyət bölməsi istisna olmaqla, digər bölmələr üzrə xərclərin artımı, əsasən, bölgüsü əvvəlcədən müəyyən olunmamış xərclərdə nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin qeyd etdiyi kimi, güclü iqtisadiyyat yaradaraq, eyni zamanda, sosial məsələlərin həllində də addımlar atılır. Bu baxımdan, cari ildə həyata keçiriləcək bir sıra sosial tədbirlərin maliyyə təminatı təklif edilmiş xərclərdə öz əksini tapmışdır.

Hörmətli millət vəkilləri, bildirmək istərdim ki, Hesablama Palatasının kollegiyası təqdim edilmiş qanun layihəsi ilə bağlı rəyini müvafiq qaydada hazırlayaraq təqdim etmişdir və müzakirələrdə rəyin nəzərə alınmasını xahiş edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim. Hörmətli millət vəkilləri, bu gün 40 məsələ var, dedim, çalışırıq ki, qurtaraq. 15 nəfər yazılıb. Yəni əgər burada əsaslı bir dəyişiklik varsa, xahiş edirəm, bu, büdcə əlavələridir. Təkid edən yoxdur. Mən Qüdrət müəllimdən də xahiş edirəm ki, təkid etməsin. Xahiş edirəm, gündəliyin birinci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin ikinci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun və nəhayət, bu zərfdə gündəliyin üçüncü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Dövlətimizin başçısı tərəfindən təqdim edilən dürüstləşdirmə qəbul edildi. Çox sağ olun.

Biz növbəti məsələmizə keçirik. Gündəliyin dördüncü məsələsi Məşğulluq haqqında qanun layihəsidir, üçüncü

oxunuş. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım! Bildiyiniz kimi, iyunun 12-də Milli Məclisin plenar iclasında Məşğulluq haqqında qanun layihəsi ikinci oxunuşda qəbul olundu. İyunun 21-də isə Milli Məclisin müvafiq komitəsində bu məsələ üçüncü oxunuşda müzakirə olundu və parlamentə tövsiyə edildi. Müzakirələrdən sonra sizə paylanan layihənin 28-ci maddəsində bir dəyişiklik olub. "Müvafiq icra hakimiyyəti orqanı" ifadəsi eyni qaydada "müvafiq icra hakimiyyəti orqanının (qurum) müəyyən etdiyi orqan (qurum) ifadəsi ilə əvəz edilmişdir. Əgər siz diqqət yetirmisinizsə, bu düzəliş bizim başqa qanunlarda da edilibdir. Bu, publik qurumlarla bağlı olan məsələdir. Ona görə belə bir dəyişiklik edilibdir. Mən deputat həmkarlarımı bu qanun layihəsinə üçüncü oxunuşda səs verməyə çağırıram. Hesab edirəm ki, bununla biz ölkəmizdə əhalinin məşğulluq imkanlarının genişləndirilməsinə daha yaxından yardımçı olacağıq. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 5-ci məsələ Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında qanun layihəsidir, üçüncü oxunuş. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Bilirsiniz ki, bu layihə komitə tərəfindən işlənib təqdim olunmuşdur və genom qeydiyyatının cinayətkarlığa qarşı mübarizə ilə bağlı, o cümlədən vətəndaşların tanınması ilə bağlı çox böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdıq. Layihənin ikinci oxunuşda müzakirəsindən sonra komitənin bəzi üzvləri, Aparatın əməkdaşları və işçi qrupunun üzvləri Daxili İşlər Nazirliyinin müvafiq laboratoriyasında görüşdə oldular. Daxili işlər nazirinin müavini Vilayət müəllim tərəfindən əyani şəkildə təqdim edildi və birmənalı qənaət ondan ibarətdir ki, belə bir qanunun qəbulu bu gün çox böyük əhəmiyyət kəsb edir.

Vacib məsələlərdən biri də odur ki, qanunun icrası ilə bağlı maliyyə ehtiyacları yoxdur, bunu laboratoriyanın özü həll edə bilir. Yeganə məsələ bu idi ki, məcburi dövlət daktiloskopiya qeydiyyatı ilə bağlı müzakirəmiz olmuşdu və qərarımız bundan ibarətdir ki, biz gələcəkdə bu mövzuya qayıda bilərik. Odur ki, hörmətli millət vəkillərindən layihəyə üçüncü oxunuşda səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, əgər etiraz etmirsinizsə, 12-ci məsələni – Büdcə sistemi haqqında qanun layihəsini qabağa salaq, Samir müəllimə imkan verək ki, getsin, işləsin. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi barədə. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Mən çıxışımda da qeyd etdim ki, Azərbaycan dövlətinin başçısı cənab Prezident tərəfindən "Büdcə sistemi haqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər edilməsi barədə layihə daxil olmuşdur. Qabaqcadan deyim ki, bu layihə çox fundamental mahiyyət daşıyır. Hökumət, Maliyyə Nazirliyi digər strukturlarla birlikdə Azərbaycanda "Büdcə sistemi haqqında" Qanunun müasir tələblərə cavab verməsi üçün kifayət qədər səmərəli iş görmüşlər. Ümumiyyətlə, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ölkədə maliyyə intizamının, maliyyə sisteminin möhkəmləndirilməsi, maliyyə resurslarının cəlb edilməsi, onların bir hissəsinin dövlət büdcəsində toplanması kifayət qədər məqbul sayılmalıdır. Artıq sistem qurulmuşdur, ancaq müasir tələblər, Azərbaycanın iqtisadi inkişaf xüsusiyyətləri "Büdcə sistemi haqqında" Qanunda dəyişikliklər edilməsini zəruriləşdirir. "Büdcə sistemi haqqında" Qanuna dəyişikliklər barədə hörmətli Samir müəllim Milli Məclisin komitə iclasında kifayət qədər ətraflı məlumat verdi. Məlum oldu ki, neft hasil edən ölkələrdə, təbii resurslardan nisbətən asılı olan ölkələrdə bu qanunun

qəbul edilməsi çox müsbət nəticə verir. Ona görə mən bayaq çıxışımda da dedim ki, bu qanunun qəbulu bütövlükdə ölkədə dayanıqlı inkişafın artırılması sahəsində hökumətin fəaliyyətini canlandıracaq, toplanan vəsaitlərdən gələcək nəsillər üçün istifadə edilməsini daha da əsaslı edəcək, eyni zamanda, Azərbaycanın üzləşdiyi problemlərin bir hissəsinin neft gəlirləri vasitəsi ilə həyata keçirilməsinə şərait yaradacaqdır.

Qanun layihəsi kifayət qədər dəyişiklikləri nəzərdə tutur. 1-ci maddədə anlayışlara aydınlıq gətirilir. Vahid xəzinə hesabı, vahid xəzinə hesabının qalığı, xalis maliyyə aktivləri, büdcə qaydası, dövlət müəssisəsi, qeyri-neft ümumi daxili məhsul, neft gəlirləri, xərclənə bilən neft gəlirləri, icmal büdcənin xərclərinin proqnozlaşdırılan yuxarı həddi və sair. Yəni, hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, çox mürəkkəb, amma çox da vacib bir qanundur. Qanun layihəsi hədd qoyur ki, biz neft gəlirlərini, icmal büdcənin xərclərini nə qədər artıra bilərik, bunun yuxarı həddi nə qədərdir və bu yuxarı hədd necə hesablanmalıdır, aşağı hədd necə olmalıdır, Azərbaycanın neft gəlirlərinin bölüşdürülməsində hansı prinsiplər əsas götürülməlidir. İcmal büdcə xərclərinin yuxarı həddi cari ilin təsdiq olunmuş icmal büdcə xərclərinin 103 faizindən çox olmamaqla xərclənə bilən neft gəlirləri ilə aşağıdakı qeyri-neft gəlirləri və digər daxilolmaların proqnozunun cəminə əsasən müəyyən edilir. Dövlət büdcəsinin neft-qaz sahəsi istisna olmaqla, digər sahələrdən ödənilən dövlət vergiləri və rüsumları, habelə bu qanunla müəyyən edilən büdcə gəlirlərinin təsnifatlarına uyğun daxilolmalar müəyyən edilir.

Mən hesab edirəm ki, bəlkə də Samir müəllim əlavə məlumat verə bilər. Cənab Sədr, biz maraqlandıq, Maliyyə

Nazirliyi dolğun hesablamalar aparıb. Hansı vaxtlarda, qiymətlərin dəyişilməsi vaxtında biz dövlət büdcəsinə neft fondundan nə qədər götürə bilərik, icmal büdcənin xərclərinin 3 faiz artması Azərbaycan iqtisadiyyatının inkişafına, bizim üzləşdiyimiz problemlərin həllinə necə təsir edə bilər. Mənə elə gəlir ki, bu qanun layihəsi kifayət qədər müsbət dəyişiklikləri özündə əks etdirir. Daha bundan sonra biz Dövlət Neft Fondundan necə gəldi, bu qədər götürürük – belə şeylər olmayacaq. Dövlət büdcəsindən icmal büdcənin xərclərindən 3 faiz artıq olmamaq şərti ilə götürəcəyik. Bu vaxt bu qədər məbləğ götürüldükdə hesablamalar aparılmışdır ki, Azərbaycanın maliyyə ehtiyatları, büdcə gəlirləri nə qədər ola bilər. Bu məsələlər öz əksini tapmışdır. Mən hətta bu gün səhər hesablamalar, proqnozlar aldım, yəni neftin qiyməti 50, 55, 60, 65 dollar olanda biz Azərbaycanın xərclənə bilinən neft gəlirlərini nə qədər götürə bilərik. Bu vəsaitlər kifayət qədər məqbuldur. Bizim üçün problem yaratmayacaq. Biz buna getməklə dünyada bütövlükdə qəbul edilmiş oyun qaydalarını özümüzə şamil edəcəyik. Mənim dediyim bu qədərdir. Mən çox vaxtınızı almaq istəmirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, qəbul edildi.

Buyur, Samir müəllim.

**S.Şərifov.** Çox sağ olun, hörmətli cənab Sədr! Təqdim olunmuş qanun layihələrinə müsbət rəy verdiklərinə görə mən bütün millət vəkillərinə təşəkkürümü bildirmək istərdim. Büdcə qaydasının tətbiqinə dair sonuncu qanun layihəsindən söhbət gedir. Mən sadəcə iki məlumatı diqqətinizə çatdırmaq istərdim. Son zamanlar dünyada maliyyə-büdcə sistemlərinin idarə edilməsi üçün büdcə qaydalarının tətbiq olunması çox geniş vüsət alır və bu da zərurətdən irəli gələn addımlardır. Təkcə onu qeyd etmək istərdim ki, 1990-cı ildə yalnız 5 ölkədə, o da şübhəsiz ki, müxtəlif ölkələrdə, müxtəlif büdcə qaydaları tətbiq olunurdu. Bunlar da, əsasən, inkişaf etmiş ölkələr idi: Almaniya, Yaponiya, Lüksemburq, Amerika Birləşmiş Ştatları və İndoneziya, yəni təbii ehtiyatlarla zəngin ölkələr. Hazırda bu ölkələrin sayı 81-ə çatmışdır. Sonra isə bu 5 ölkə büdcə qaydalarının tətbiqini dayandırmışdır.

Büdcə qaydalarının tətbiqi, hörmətli Ziyad müəllimin də qeyd etdiyi kimi, əsasən, təbii ehtiyatlarla zəngin ölkələrdə vacib amillərdən biridir. Burada onların tətbiqinin əsas vacib elementi ondan ibarətdir ki, bir tərəfdən maliyyə intizamı yaradılır, yəni xərclərin yuxarı həddinə müəyyən orta və uzunmüddətli limitlər tətbiq olunur, digər tərəfdən isə bizim üçün, yəni hər bir təbii ehtiyatlarla zəngin ölkə üçün vacib olan meyar gəlirlərin dəyişkənliyidir. Yəni gəlirlərin dəyişkənliyindən müəyyən mənada qoruyucu mexanizmlər işə salınır.

Bunlar nədən ibarətdir? Deməli, bizim büdcə siyasətimiz ilk növbədə kontrtsiklik siyasət olmalıdır. Yəni iqtisadi tsikl olanda, gəlirlərimiz artanda biz çalışıb bütün artımı xərcləməməliyik, istifadə etməməliyik və əksinə,

məsələn, gəlirlərimiz azalanda bizim sərəncamımızda kifayət qədər ehtiyatlar olmalıdır ki, həmin bu kontrtsiklik siyasəti həyata keçirək. Beləliklə, bu, uzunmüddətli siyasətin və ardıcıl büdcə siyasətinin həyata keçirilməsinə şərait yaradır. Bir daha öz təşəkkürümü bildirirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Keçirik növbəti məsələyə. Azərbaycan Respublikasının Hesablama Palatası haqqında qanun layihəsi, üçüncü oxunuş. Mən sizin nəzərinizə çatdırım ki, bu qanun layihəsinin təşəbbüskarı Milli Məclisdir. Mənə məruzə olundu, görüşlərə də baxdım. Həm komitə sədri ilə, həm də Palatanın sədri ilə danışıldı. Bəzi redaktə xarakterli dəyişikliklər olacaq, ona biz baxacağıq. İndi xahiş edirəm, qısaca üçüncü oxunuşa təqdim edin. Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, Hesablama Palatası haqqında qanun layihəsinin ikinci oxunuşunda Milli Məclisin komitə üzvləri tərəfindən deyilən fikirlər nəzərdən keçirilmiş, onların bir hissəsi Milli Məclisə üçüncü oxunuş üçün çıxarılmışdır. Əgər icazə versəniz, mən dəyişiklikləri bir-bir qısaca oxuyum, necə məsləhət bilirsiniz. "Əsas anlayışlar" bölməsində 1.0.5-ci maddə belə oxunacaq:

"Kənar dövlət maliyyə nəzarətinin obyektləri – dövlət orqanları, büdcədənkənar dövlət fondları, bələdiyyələr, publik hüquqi şəxslər, dövlətin və bələdiyyələrin payı olan hüquqi şəxslərə dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından ayrılan vəsait (bu maddədə sadalanan qurumlara mal təqdim etməklə əvəzində vəsait alan dövlətin, bələdiyyələrin payı olmayan hüquqi şəxslər, habelə fiziki şəxslər istisna olmaqla), dövlət proqramları və layihələridir".

2-ci maddədə, yəni 2.2-də edilən dəyişiklik:

"Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti

fəaliyyətini bu Qanuna və Hesablama Palatası tərəfindən hazırlanan metodiki sənədlərə uyğun həyata keçirir”. 2.2-ci maddədə beynəlxalq audit təşkilatının adı var idi. Komitə belə hesab etdi ki, bu təşkilatın bura daxil edilməsi məqsədəuyğun deyil.

“Hesablama Palatasının müstəqilliyi” adlanan 5-ci maddədə 5.1. belə oxunmalıdır:

“Hesablama Palatası təşkilati və funksional müstəqilliyə malikdir və onun fəaliyyətinə müdaxilə etmək yolverilməzdir”.

Əgər oxumağa ehtiyac yoxdursa...

**Sədrlik edən.** Maddə-maddədir, öz qanunumuzdur. Əgər dəyişiklik olacaqsa, biz baxacağıq. Yenidən başlayıb Hesablama Palatasının qanun layihəsini müzakirə etməyəcəyik ki. Hamınızın xoşunuz gəlir, üçüncü oxunuşu uzadasınız. Yazılan millət vəkillərindən çıxış etməyə təkid edən var. Qısa xahiş edirəm, Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm, hörmətli cənab Sədr. Hörmətli həmkarlar, mən anlayıram, bu, sessiyamızın sonuncu iclasıdır. Bir tərəfdən də büdcəyə ümumi dəyişikliklər edilibdir. Cənab Sədr, təşəkkür edirəm ki, bu xoş şəraitdə mənə söz verdiniz. Adətən biz qanun layihələrində tez-tez dəyişikliklər aparırıq. Əminəm ki, indi qəbul etdiyimiz qanun işləyəndə iqtisadiyyatın həyatında müəyyən prosesləri görəcəyik, onda zərurət yaranacaq. Ona görə də iki prinsipial maddəyə münasibətimi ifadə etmək istəyirəm. Düşünürəm ki, komitə bunun ətrafında təhlillər apara bilər. Birinci qanun layihəsinin 8.0.1-ci maddəsində qeyd olunub:

“Kənar dövlət maliyyə nəzarətini təmin etmək məqsədi ilə dövlət xəzinədarlığı məlumatlarına birbaşa çıxış imkanı əldə edir”. Bu maddə ilə bağlı demək istəyirəm. Bilirsiniz ki, dövlət başçısının xüsusi bir qərarı var. Burada həmin

məsələlər nəzərdə tutulub. Biz onu qanunvericiliyə niyə daxil etmişik, mənə aydın deyil. Amma prinsipial olan 8.0.3-cü maddəyə olan dəyişiklikdir. Burada qeyd olunub:

"...kənar dövlət maliyyə nəzarətinin məqsədləri çərçivəsində nəzarət obyektlərinin elektron informasiya sisteminə daxil olur". Əlbəttə, anlayırıq, biz parlamentdə dəfələrlə tələb edirdik ki, maliyyə şəffaflığı olsun, böyük cinayətlər baş verməmiş bunlar aşkarlansın və sair. Amma diqqət etsəniz, dövlət başçısının bütün addımları sahibkarlıq subyektinin fəaliyyətinin genişlənməsinə xidmət edir. Ona görə də elektron informasiya sistemlərinə daxil olmaq səlahiyyəti bütövlükdə palataya verilirsə, mənə elə gəlir ki, bu, gələcəkdə bu və ya digər problemləri meydana çıxaracaq.

Paralel olaraq burada 8.0.10-cu maddədə qeyd olunubdur:

"...aşkar edilmiş kənarlaşma hallarına dair sənədlərə və başqa sübutlara müdaxilə olunmasının qarşısını almaq məqsədi ilə müvafiq qaydada rəsmiləşdirməklə kassaları, istehsalat və xidmət sahələrini, anbar və arxivləri, əmlakları möhürləyir". Maliyyə Nazirliyinin bir məsələ ilə də bağlı həmin o möhürləmə və digər qaydaların hamısını nəzərdə tutan xüsusi qərarı var və belə olan təqdirdə yenə də bu səlahiyyətlərin bütövlükdə Hesablama Palatasına verilməsi nə kimi nəticələr doğuracaqdır? Bunu ölçüb-biçmək lazımdır. Bu, açıq şəkildə sahibkarlıq fəaliyyətinə, iqtisadi fəaliyyətə də maneçilik törədə bilər.

Sonuncu olaraq 21.12-ci maddə ilə bağlı, "səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin" ifadəsi. Səhmləri dövlətə məxsus olan hansı ölkədə, hansı faizdə? Bunun da dəqiqləşdirilməsi işin xeyrinə olardı.

Cənab Sədr, mən Sizə çox təşəkkür edirəm. Ola bilsin ki, Sizin bu məsələlərlə bağlı fərqli fikirləriniz var. Yəni

mən ümumən Hesablama Palatasının parlamentin güclü maliyyə nəzarəti orqanı kimi ölkə miqyasında büdcənin xərclənməsinə nəzarət etməsinin böyük tərəfdarlarından biriyəm. Buna heç bir şübhə ola bilməz. Çünki bu qurumun nüfuzu adekvat olaraq parlamentin nüfuzuna təsir edir. Çox təşəkkür edirəm ki, imkan yaratdınız, bunları dedim. Bunlar mövqedir və əminəm ki, gələcəkdə komitə çərçivəsində bu məsəllərə baxıla bilər. Çox sağ olun.

**Sədrlik edən.** Deməli, bu, üçüncü oxunuşdur, mən bir daha deyirəm. Çıxışımın əvvəlində də dedim ki, bu qanun layihəsinin təşəbbüskarı Milli Məclisdir və bəzi məsələlərə, deyilən dəyişikliklərə bir daha baxılacaq. Yəni çıxış etməyə ehtiyac varmı, Aqil müəllim, Musa Qasımlı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, üçüncü oxunuşda Azərbaycan Respublikasının Hesablama Palatası haqqında qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 7-ci məsələ. "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə qanun layihəsi. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Azərbaycan Respublikası ilə Mərakeş Krallığı Hökuməti arasında iqtisadi əlaqələr ildən-ilə genişlənir, İslam ölkələrinin daxil olduğu təşkilatın üzvü kimi Mərakeş Hökuməti Azərbaycanın haqlı səsini müdafiə edir. Ümumiyyətlə, bu ölkə ilə iqtisadi əlaqələrimizin genişlənməsi istiqamətində çox maraqlı işlər görülür. Bu kimi qanun layihələri sizlərə məlumdur. İkiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması gələcəkdə bizim iqtisadi inkişaf imkanlarımızı genişləndirəcəkdir. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Başqa çıxış etmək istəyən varmı? Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi – Dan Ulduzu – Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbay-

can Əşrəfi Dan Ulduzu Aypara BV və SOCAR-ın Ortaq neft şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Valeh müəllim, buyurun.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm. Bəxtimiz elə gətirib ki, 38-ci kontraktı təqdim etməliyik. İcazə versəniz, qısa tarixi bir arayış verim. 1995-ci ildə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Qarabağ" sahəsində hasilatın pay bölgüsü haqqında Azərbaycanla xarici şirkətlər arasında saziş imzalanmışdı. 1996-cı ildə də Əşrəfi–Dan Ulduzu–Aypara sahəsinə aid saziş imzalanmışdı. Aparılan kəşfiyyat işləri nəticəsində "Qarabağ" sahəsində podratçı tərəf kimi çıxış edən şirkətlər qərara gəldilər ki, aşkar edilmiş karbohidrogen ehtiyatları yetərli qədər deyil. Doğrudan da, o qədər də böyük deyil idi. Bizim o vaxtkı tanınmış layihələrimiz – Azəri–Çıraq, Şahdəniz idi, misal üçün, Şahdənizdə 1 trilyon kub-metrdən artıq qaz ehtiyatları, Qarabağda bundan 52 dəfə az, yəni 18 milyard kubmetrə yaxın, Azəri–Çıraqda 1 milyard tondan artıq, "Qarabağ"da 8 milyon tona yaxın neft ehtiyatları var. Eyni ilə də Dan Ulduzu–Əşrəfi sahəsində 3 perspektiv strukturda aparılan qazma işləri nəticəsində podratçı tərəflər qərara gəldilər ki, aşkar edilmiş karbohidrogen ehtiyatları yetərli deyil və ona görə də 2002-ci ildə konktraktın şərtlərinə uyğun olaraq bu sahəni tərk etdilər. Hər iki halda da şərtlərə əsasən xarici tərəfdaşların çəkdiyi xərclər Dövlət Neft Şirkəti tərəfindən ödənilməmişdir və bu illər ərzində bu sahələrlə əlaqədar heç bir iş aparılmamışdır. Bunların izahı həm ehtiyatların aşağı olması ilə bağlıdır, həm də yadınızdadırsa, 1998-ci ildə neftin qiyməti 12–13 dollara

enmişdi. Bir də ki, o zaman Xəzər dənizinin Azərbaycan sektorunda və sahildə müvafiq infrastrukturun olmaması bu sahələrə marağın itməsinə gətirib çıxarmışdır.

Keçən illər ərzində neftin qiymətinin qalxması, infrastrukturun mövcud olması nəticəsində Dövlət Neft Şirkəti ilə Statoyl Şirkəti aparılan danışıqlara əsasən qərar verdilər ki, hər iki sahədə dəyərləndirmə işlərinə davam etsinlər və əgər dəyərləndirmə ilə bağlı aparılan işlər nəticəsində bugünkü qiymətlər, hazırkı infrastruktura uyğun olan və bu layihələri səmərəli, mənfəətli səviyyəyə çıxara bilən ehtiyatlar varsa da, bu sahələrdə kəşfiyyat işlərini bitirəndən sonra işlənmə mərhələsinə keçsinlər və neft-qaz hasilatına başlasınlar. Fərq nədən ibarətdir? Bu, Əşrəfi–Dan Ulduzu–Aypara sahəsində standart hasilatın pay bölgüsü haqqında sazişdir.

"Qarabağ" sahəsinə aid "aralıq dövrü" deyilən bir müddət ayrılıb. 12 ay ərzində Statoyl Şirkəti ehtiyatları bir də dəyərləndirmək üçün kəşfiyyat quyusu qazır və əgər həmin quyudan əldə edilən nəticələr bu layihənin səmərəli və mənfəətli olmasını təsdiq edirsə, işlər davam edəcək, əks halda, Statoyl bu Sazişdən çıxa bilər. Ancaq o zaman bu quyu Dövlət Neft Şirkətinə qalır və Dövlət Neft Şirkəti bu işləri özü davam edə bilər. Ehtiyac varsa da, bu kontraktları bir-bir, standart şəkildə yenə də sizə söyləyim. Ancaq heç bir şey dəyişməyib, eyni şəkilləri, eyni slaydları göstərəcəyəm, çünki kontraktların standart forması var. Mənim fikrimcə, dediklərim yetərlidir. Ona görə də xahiş edirəm, səs verək, qəbul edək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Valeh müəllim. Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli sədrlik edən. Deməli, qanun layihəsinə səs verəcəyəm. Mənim üçün bu sazişlər xüsusilə xoşdur ki, artıq dünya brendinə çevrilmiş

SOCAR-ın özü beynəlxalq təşkilatlarla ortaq şirkətlər yaradır və bu çox yaxşı haldır. Eyni zamanda, sazişlərdə xüsusi qeyd olunub ki, SOCAR müstəsna mülkiyyətə sahibdir. Yəni bu iki məsələ mənim üçün çox xoşdur, çünki əvvəlki sazişlərdə də belə konkret olmasını arzu edərdim. Ancaq hər biri haqqında...

**V.Ələsgərov.** Tahir müəllim, çox üzr istəyirəm, bu kontraktları hazırlayanda əziyyət çəkmişik, Sizin dediyiniz hamısında yazılıbdır. Müstəsna hüquqlar da, müstəsna mülkiyyət hüququ da – hamısı yazılıbdır. Xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, Tahir müəllim.

**T.Kərimli.** Təşəkkür edirəm. Onda mən, eyni zamanda, qanun layihəsinə, sazişə və hökumət təminatına aid hüquqi məsələləri nəzərinizə çatdırmaq istəyirəm. Əvvəllər də bunu demişdim, yenə də deyirəm. Birincisi, qəbul etdiyimiz qanunun 4-cü bəndində göstərilir ki, bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Saziş, Hökumət təminatı qəbul oluna biləcək qanunların, fərmanların, yaxud inzibati sərəncamların, onların hissələrinin müddəalarından üstün tutulur. Yəni bu qanun bundan sonra qəbul ediləcək yeni qanunlardan da üstündür.

Yenə nəzərinizə çatdırmaq istəyirəm. “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 10.5-ci maddəsində yazılır:

“Yeni normativ hüquqi akt eyni məsələ üzrə həmin dövlət orqanı tərəfindən əvvəllər qəbul edilmiş normativ hüquqi akta münasibətdə daha yüksək hüquqi qüvvəyə malikdir”. Yəni “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununa əsasən yeni qəbul ediləcək hər hansı bir qanun əvvəlki qanuna nisbətən yüksək hüquqa malikdir. Özü də bu eyni mətnlər sazişin layihəsində də keçir. Ona

görə də əvvəllər də dediyim kimi, burada elə kiçik düzəlişlər aparmalıyıq ki, Konstitusiya Qanununa uyğun olsun. Yəni belə yazmaq olar:

“Sonradan qəbul ediləcək qanunlar, sərəncamlar, normativ aktlar və hətta qeyri-normativ hüquqi aktlar bu sazişə uyğun qəbul edilsin”. Burada nə var ki? Keçən dəfə də demişdim.

İkinci məsələ Saziş ilə bağlıdır. Sazişdə, – mən hər iki sazişi nəzərdə tuturam, – yazılır:

“Azərbaycan Respublikasında və İngiltərə qanunları üçün ümumi olan hüquqi prinsiplərə müvafiq surətdə hər hansı məsələyə dair ümumi prinsiplər olmadığı halda, Kanadanın Alberta əyalətinin ümumi hüquqi prinsipləri müvafiq surətdə tənzimlənir”.

Eyni zamanda, bu, 23.3.1. ikinci məcəllədə də var. Amma burada yazılır:

“SOCAR ilə hər hansı podratçı tərəf, yaxud bütün podratçı tərəflər arasında mübahisələr, rəhbər komitənin iclasında həll edilməmiş qalan məsələlər daxil olmaqla, baş verdikdə, mübahisə edən tərəflər ingilis qanunları çərçivəsində müqavilə təfsiri prinsiplərini tətbiq etməklə bu sazişin şərtlərinə əsaslanaraq mübahisələrin qarşılıqlı surətdə qənaətbəxş bir şəkildə həll olunmasına cəhd göstərmək üçün görüşürlər”.

Mən fikirləşdim, mülkiyyət Azərbaycanındır, nə üçün ingilis qanunları tətbiq olunur, mən bunu anlaya bilmirəm. Bu bir. İkincisi, biz yazırıq ki, İngiltərə ilə Azərbaycan qanunları arasında ümumi prinsiplər yoxdursa, bu halda Alberta əyalətinin qanunları, ümumi xarakterli qanunlar qüvvəyə minir. Bəs onda burada ingilis qanunları nə üçündür? Ola bilər ki, praktikada rast gəlinməyib, amma bu, hüquqi məsələdir. Gələcəkdə belə beynəlxalq mübahi-

sələr yarana bilər. Misal üçün, onu da nəzərdə tutaq ki, mülkiyyət sahəsində, xüsusən torpaq qanunvericiliyi sahəsində həm Albertanın, həm də İngiltərənin qanunları Azərbaycan qanunlarından kəskin şəkildə fərqlənir. Sabahkı gün həmin arbitraj Azərbaycan qanunlarının ziddinə qərar qəbul edə bilər. Ona görə bu müddəanı nəzərə çatdırmaq istəyirəm.

Üçüncüsü, vaxt almadan bir məsələyə keçmək istəyirəm. Yazır:

"Podratçı tərəfin heç bir hüquqi mənafeyi ilə əmlakı Azərbaycan Respublikasının hər hansı bir hakimiyyət orqanının hər hansı hərəkətləri nəticəsində ekspropriasiya edilə bilməz, ümumiləşdirilə bilməz və başqa şəkildə özgəninkiləşdirilə bilməz".

Qəti şəkildə bilməz, amma arxasınca da yazılır. "Lakin bu müddəalara baxmayaraq, podratçı tərəfin hər hansı bir hüquqları, mənafeləri üzrə əmlakı, o cümlədən mənimsənilməmiş ehtiyatları ekspropriasiya edilərsə, milliləşdirilərsə və başqa şəkildə özgəninkiləşdirilərsə və axırda dollar ilə tam həcmdə dərhal kompensasiya ödənilir".

Birincisi, dünya dövlətlərində dollar çoxdur, Sinqapur dolları da var. Burada ABŞ dolları olsa, yaxşıdır. Ümumiyyətlə, mən əvvəllər də demişəm, Sazişdə, elə burada da Azərbaycan qrammatikasına uyğun olmayan, nöqtəvergüllərindən sonra hamısı ləğv olunub. Əvvəllər də demişdim, elə bilirdim, aradan qaldırılacaq. Amma söhbət ondan gedir və mən özüm də tərəfdarıyam ki, bu, "ekspropriasiya edilə bilməz, yaxud özgəninkiləşdirilə bilməz, milliləşdirilə bilməz" müddəası olmasın. İndi bir-birindən, yəni eyni bir maddədə, davada biri qəti şəkildə deyir olmaz, amma birdən olarsa, belə olar. Bu da, təbii ki, ortalığa məsələ çıxarır.

Nəhayət, Azərbaycan hökumətinin təminat məsələsindəki, o da qanuna minir, onu da vaxt almamaq üçün deyirəm. Birinci dediyim şərt əsasında, yəni qanuna çevrildiyinə görə müvafiq Konstitusiya və hüquqi aktlarla ziddiyyət təşkil edə bilər. Ona görə həmin qanunlarda düzəliş edilməsini təklif edərdim. Yəni bu o demək deyil ki, mən bunun ziddinəyəm, çox təəssüf edirəm, belə başa düşülür və düzünü deyim, çıxış etməyə görə həvəsdən də düşdüm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

**V.Ələsgərov.** İki kəlmə mən.

**Sədrlik edən.** Buyurun, Valeh müəllim.

**V.Ələsgərov.** Tahir müəllim, bir az emosional reaksiya verdiyimə görə üzr istəyirəm. Mənə də eyni şeyi burada 37 dəfə söyləmək, 37 dəfə eyni suallara cavab vermək, 37 dəfə eyni şeyləri izah etmək, inanın, –baxmayaraq ki, 1994-cü ildən bəri 24 il keçib, – bir az çətindir. Orada yazılanları biz burada 37 dəfə qəbul etmişik, təsdiq etmişik və bunlar öz üstünlüklərini göstərib. Sizin qaldırdığınız məsələlər Sazişdə yazılmasaydı, biz başqa ölkələrdə olduğu kimi, mənfəətli neftin 20–30 faizinin sahibi ola bilərdik. 80-dən yuxarı yox, indi olduğumuz kimi. Bunlar hamısı düşünülmüş, artıq dünyada bir model kimi qəbul edilmiş sazişlərdir. Əgər bunlarla bağlı bir çətinlik çəkən varsa da, dəfələrlə demişəm, gəlin oturaq, bir-bir hamısını izah edim, nəyə görə belə yazılıb. Nə Azərbaycan qanunvericiliyinə, nə də Konstitusiyaya zidd olan bir şey yoxdur. Xahiş edirəm, əminəm ki, səs verib qəbul edəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, 8-ci məsələyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

9-cu məsələ. "Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" neft yatağının işlənməsi ilə əlaqədar" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSi arasında Risk xidmət Sazişinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsi. Valeh müəllim bu barədə məlumat verdi. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Bahar xanım, buyurun.

**B.Muradova,** *Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, Ziyafət müəllim. Sözügedən qanun

layihəsi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli məktubu ilə daxil olub və söhbət “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin 1-ci bəndinə edilən dəyişikliklərdən gedir. Bildiyiniz kimi, bu qanun 2005-ci il sentyabrın 30-dan qüvvədədir və bu qanunun bütün müddəaları informasiya əldə etməyin yollarını, hansı informasiya əldə etmək yollarını, informasiya sahibinin informasiyanı açıqlamaq vəzifələri və onun üsullarını, bir sıra başqa qaydaları müəyyən edir. Vurğulandığı kimi, 29-cu maddə informasiya sahibinin malik olduğu informasiyanı açıqlamaq öhdəliyini müəyyən edir. 30-cu maddənin 1-ci bəndi bu vəzifənin hansı üsullarla yerinə yetirilməsi qaydalarını müəyyənləşdirir.

İndiki dəyişiklik məhz 30-cu maddənin 1-ci bəndinə əlavə ediləcək bir cümlədir. Bu cümlədə də büdcə təşkilatlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin, büdcədənkənar dövlət fondlarının, səhmlərinin 30 faizi və ya daha artıq hissəsi dövlətə məxsus olan təsərrüfat cəmiyyətlərinin illik maliyyə fəaliyyəti haqqında məlumatların, o cümlədən dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid olan informasiyanın informasiya sahibi tərəfindən internet informasiya ehtiyatlarında açıqlanması qaydasını müəyyən edir. Eyni zamanda, bu qaydanın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qurum tərəfindən yaradılmasından söhbət gedir.

Sözügedən dəyişiklik Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş “Açıq hökumətin təşviqinə dair 2016–2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası məqsədi ilə edilir. Hesab edirəm ki, bu, qanunun bütün müddəalarının yerinə yetirilməsi informa-

siya sahibinin vəzifəsini doğru-düzgün icra etməsi, eyni zamanda, həmin planın icrasına yardım göstərmək məqsədi daşıyır. Bu dəyişiklik komitədə müzakirə olunub. Komitə üzvləri bu dəyişikliyi birmənalı şəkildə dəstəkləyiblər. Hesab edirəm ki, biz də dəstəkləyib səs verə bilərik. Sizin hamınızı bu dəyişikliyə səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Nə təklif var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

11-ci məsələ "İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli Fərmanında qeyd olunmuşdur ki, səhmdar cəmiyyətin mülkiyyətində olan dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının tam

məbləği onun büdcəsinə daxil edilməklə fəaliyyətinin təmin edilməsinə yönəldilir.

"İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanunu layihəsinin məqsədi adıçəkilən fərmana uyğun olaraq icarə haqlarının bölgüsü ilə bağlı bu qanunda müəyyən olunmuş qaydadan fərqli qaydanın müəyyən edilə bilməsi üçün hüquqi əsas yaratmaqdan ibarətdir.

Siz bilirsiniz ki, sənaye korporasiyası yaratdıq və hazırda sənaye korporasiyasının fəaliyyətini normal davam etdirmək üçün icarə haqları yığılır. Ona görə də hələlik icarə haqlarının onun sərəncamında qalması məqsədəuyğun hesab edilmişdir ki, o, qarşısında qoyulan məsələləri həll edə bilsin.

**Sədrlik edən.** Sağ olun. Buyurun, çıxış etmək istəyən varmı? Yoxdur. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsidir. O məsələ keçdi, səsə qoyduq.

Növbəti 6 məsələ cənab Prezidentin bir məktubu ilə daxil olub. Elədirmi, Əli müəllim? Buyurun, 13, 14, 15, 16,

17, 18-ci məsələlər. Əli müəllim, hansı Sizə aiddir, buyurun, zəhmət olmasa, məlumat verin. Səsverməni ayrıca keçirərik. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. 2017-ci il fevralın 10-da cənab Prezident tərəfindən cəza siyasətinin humanistləşdirilməsinə dair fərman imzalanmışdır. Fərmanın icrası ilə bağlı həm də xüsusi bir qurum – Probasiya xidməti yaradıldı. Probasiya xidməti azadlığın məhdudlaşdırılması növündə cəzadan vaxtından əvvəl şərti azad olunmuş, yəni həbsxanalardan çıxmış şəxslərin cəzasının davamının icrası ilə bağlıdır. Məhz buna görə də bütün bu qanunlarda, yəni Cinayət Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "İcra məmurları haqqında" Qanunda, "İcra haqqında" Qanunda, "Polis haqqında" Qanunda və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda Probasiya xidməti, icra məmuru anlayışı öz əksini tapır. Əslində, bu bizim artıq qəbul etdiyimiz qanunlara uyğunlaşdırma xarakteri daşıyır. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydındır. Qanun layihələri ilə bağlı çıxış etmək istəyən varmı? Əgər yoxdursa, xahiş edirəm, 13-cü məsələyə münasibət bildirək. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 81 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 82 |
| Nəticə: Yetərsay yoxdur | |

Səsvermənin nəticələrini verin, zəhmət olmasa. Yetərsay yoxdur. Xahiş edirəm, səsvermədə diqqətli olaq, bir də səs verək. Buyurun, səsvermə yenidən keçirilir.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsidir. Münasibət bildirək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bu məktubla daxil olan axırıncı məsələ “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsidir. Münasibət bildirək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Hörmətli həmkarlar, növbəti 6 məsələ də cənab Prezidentin bir məktubu ilə daxil olub. Əli müəllim, Siz məlumat verəcəksiniz? Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. 19–24-cü məsələlərin mahiyyəti onunla bağlıdır ki, 2016-cı ilə qədər  bizdə Feldyeger xidməti fəaliyyət göstərirdi, indi də var. Amma 2016-cı ildən bu xidmət Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tərkibindədir. Artıq 2 ildir. Bilirsiniz ki, bu xidmətin qanunvericilik bazası “Feldyeger rabitəsi haqqında” Qanun idi. Artıq vəziyyət dəyişib və 2017-ci ildən bu xidmətin fəaliyyəti cənab Prezidentin fərmanı ilə təsdiq olunmuş əsasnamə ilə tənzimlənir. Ona görə biz qeyd etdiyimiz bütün qanunlardan “feldyeger rabitəsi” sözünü çıxarırıq və eyni zamanda, 2 qanun qüvvədən düşür. Çünki artıq qeyd etdiyim kimi, onun fəaliyyəti “Feldyeger rabitəsi haqqında” Qanunla deyil, cənab Prezidentin fərmanı ilə təsdiq edilən xüsusi əsasnamə ilə tənzimlənir. Bu xidmət artıq Xüsusi

Dövlət Mühafizə Xidmətinin tərkibindədir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Mənə elə gəlir ki, hər şey aydındır, yəni burada xüsusi müzakirəyə heç bir əsas yoxdur. Ona görə xahiş edirəm, 19-cu məsələyə münasibət bildirək. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsidir. Münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsidir. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Feldyeger rabitəsi orqanında xidmət-keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanununun ləğv edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsidir. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsidir. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Nəhayət, bu paketə daxil olan sonuncu məsələ "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

25-ci məsələ Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında qanun layihəsidir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Bilirsiniz ki, biz bir neçə dəfə bu qanunun qüvvəyə minməsi tarixini dəyişmişik. Çünki bunun üçün xüsusi avadanlıq alınmalı idi. Məlumat üçün qeyd etməliyəm ki, bu avadanlıq artıq Azərbaycandadır. Söhbət yeni nəsil şəxsiyyət vəsiqəsindən, yəni biometrik şəxsiyyət vəsiqələrindən, Avropa İttifaqına tam üzv olan ölkələrin vətəndaşlarının daşıdığı şəxsiyyət vəsiqəsindən gedir, orada qorunan informasiyalar var. Daxili İşlər Nazirliyindən əldə etdiyim məlumatı da nəzərinizə çatdırmaq istəyirəm ki, bu avadanlıq Bakı və Naxçıvan da daxil olmaqla, Azərbaycanın on regionunda, iki ASAN mərkəzində – Gəncədə və Bakıda quraşdırılıb. Artıq sentyabr ayının 1-dən

Azərbaycan vətəndaşlarının yeni nəsil şəxsiyyət vəsiqəsi ilə təmin olunması prosesi başlayacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Biz belə hallarda müddətləri adətən uzadırdıq, amma bu dəfə qısaldırıq. Buyurun, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

26-cı məsələ Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsidir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, Ziyafət müəllim. 26-cı və 27-ci məsələlər bir-biri ilə bağlıdır. 26-cı məsələdə – Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsində, hesab edirəm ki, çox mütərəqqi müddəalar öz əksini tapıb. Birincisi, qeyd etməliyəm ki, indiyə qədər əcnəbi cəriməni ödədikdən də sonra ona qoyulmuş qadağanın götürülməsi bəzən problem yaradırdı. Bu layihədə təklif olunur ki, əgər əcnəbi cəriməni ödəyirsə, artıq onun Azərbaycana gəlməsinə qoyulmuş məhdudiyyət avtomatik götürülür.

İkincisi, bilirsiniz ki, biz zamanında əcnəbilərin ölkədə olduqları yer üzrə qeydiyyatının müddətini 3 gün, sonra 10 gün uzatmışdıq. İndi cənab Prezident tərəfindən daha bir mütərəqqi addım atıldı və bu 10 günlük müddət 15 günədək uzadılır. Yəni turistlər ölkəyə gəldikdə 15 gün

müddətində Azərbaycanda tam sərbəst qala bilirlər.

İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişiklik də müəyyən mənada bu məsələ ilə bağlıdır. Söhbət ondan gedir ki, 10 gün müddətində hər hansı bir inzibati pozuntu olduqda, İnzibati Xətalar Məcəlləsində cərimə müəyyənləşdirilib. Amma 3 ay ki, vizasız qalma imkanı var idi, əcnəbilər bu cəriməni bəzən ödəmirdilər. Yaxud da düşünürdülər ki, bunu sonda ödəyərlər və sair. İndi təklif olunur ki, cərimə ödənmədikdə müəyyən bir dəbbə olacaq. Hesab edirik ki, bu da mütərəqqi bir addımdır ki, qanun pozuntusu olan halda, əcnəbi də, vətəndaş da bunu ödəməkdə, daha doğrusu, tez ödəməkdə maraqlı olsun. Çünki ödəyərsə, artıq bununla bağlı hər hansı bir məhdudiyyətlə üzləşməyəcək. Yəni demək istəyirəm ki, hər iki layihə ölkəyə turist axınının daha da genişləndirilməsi, ümumiyyətlə, əcnəbilərin Azərbaycanda sərbəst davranışı baxımından çox mütərəqqi layihədir, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Aydındır, Əli müəllim, çox sağ olun. Elmira Axundova.

**E.Axundova**. Çox sağ olun. Hörmətli sədarət, hörmətli həmkarlarım! Doğrudan da, çox mütərəqqi addımdır, xüsusən qeydiyyat vaxtının 10 gündən 15 günədək uzadılması. Mənim bir sualım var. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə təklif olunan dəyişiklikdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin bizim respublikamıza gəlişinə qadağa və məhdudiyyətləri nəzərdə tutan 16-cı maddənin 1.8-ci bəndində əvvəllər əcnəbi və vətəndaşlığı olmayan şəxslər miqrasiya qanunvericiliyini pozduğuna görə iki və daha çox inzibati məsuliyyətə cəlb olunduqda onların ölkəyə girişinə qadağa və məhdudiyyətlər tətbiq edilirdi. İndi təklif olunan dəyişiklikdə isə qeyd olunur ki,

həmin inzibati məsuliyyətə görə müəyyənləşdirilən cəriməni ödədikdə bu qadağa götürülür.

Buradan belə çıxmırmı ki, ölkəmizə gələn əcnəbilər yaşama qaydalarını pozduqları halda, müəyyən məbləğdə cərimə ödəyərək yenə də burada qalıb, istədiyi davranışı davam etdirə bilərlər?! Bəzi xarici vətəndaşlar üçün bu məbləği ödəmək elə də çətin olmayacaq. Bu halda, belə liberallaşma neqativ halların çoxalmasına gətirib çıxarmayacaqmı? Onsuz da mətbuatımızda, xüsusən də sosial şəbəkələrdə bəzi xarici turistlərin ölkəmizdə özlərini artıq dərəcədə sərbəst aparmasına, məsələn, xanımlarımıza qarşı xoşagəlməz hərəkətlərinə dair çoxsaylı şikayətlər və etirazlar nəzərə çarpır. Mənə elə gəlir ki, bu maddəyə bir əlavə etmək lazımdır ki, əgər hansısa əcnəbi artıq bir dəfə cərimələnib və yaşama qaydalarını ikinci, üçüncü dəfə pozubsa, artıq onu cərimə etmək deyil, respublikamızın hüdudlarından kənara çıxarmaq məqsədəuyğun olardı. Yoxsa ancaq cərimələrlə kifayətlənsək, məncə, neqativ hallar çoxala bilər. Xahiş edirəm, bu məsələyə aydınlıq gətirəsiniz. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hörmətli həmkarlar, bu layihə Azərbaycana gələn əcnəbilərin, turistlərin nə etik davranışı, nə də ki hər hansı qanun pozuntusu, cinayət qanunvericiliyinin pozulması ilə bağlı deyil, biz o məsələləri həll etmirik. Bu maddə ancaq yaşama qeydiyyatı ilə, yaşama qaydası ilə bağlıdır, misal üçün, zamanında qeydiyyata düşməmək, qeydiyyatla bağlı müvafiq dövlət orqanına məlumat verməməklə bağlıdır. Söhbət ancaq bundan gedir. Belə bir inzibati xətaya görə turist cəriməni ödəyibsə, deməli, törətdiyi inzibati xətanın öhdəliyini yerinə yetirib. Əksinə, bizim belə bir liberal

addım atmağımız dünya praktikasına tam uyğundur, çünki vətəndaş artıq heç bir məsuliyyət daşımır. Əgər həmin şəxs, əcnəbi bilərəkdən, bilməyərəkdən inzibati xəta ilə bağlı buraxdığı bir pozuntunun cərimısini ödəyibsə, nəyə görə yenidən Azərbaycana gəlməsin? Hesab edirəm, bu, çox mütərəqqidir. Bir daha vurğulayıram, bu, turistlərin nə etik davranış qaydaları, nə də ki ciddi qanun, cinayət pozuntuları ilə bağlı deyil.

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti, 27-ci məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Buyursun Əli müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti, 28-ci və 29-cu məsələlər bir məktubla gəlib. “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə, eləcə də İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun, cənab Sədr. “Yol hərəkəti haqqında” Qanuna və İnzibati Xətalar Məcəlləsinə dəyişiklikdə nəqliyyat vasitəsi istifadəçilərinin Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi İnformasiya Sistemində olan mobil telefon nömrələrinə törətdiyi qayda pozuntusu barədə SMS məlumatın İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsində göstərildiyi qaydada 10 gün müddətində vəsatət verilmədikdə  elektron protokolun inzibati tənbeh tətbiq etmək üçün qərar sayılması təklif olunur. Məsələ burasındadır ki, bir çox hallarda sürücülərin daimi qeydiyyat yeri, hansı ünvanda yaşaması, işlədiyi yer məlum olmur, yəni bu qərarların göndərilməsi ilə bağlı problem yaranır və bu baxımdan elektron protokolların onlara çatdırılması mümkün deyil. Təklif olunan layihə də bu problemin aradan qaldırılmasına yönəlib.

Eyni zamanda, bilirsiniz ki, texniki baxışdan keçmədən idarə olunan  nəqliyyat vasitəsi ilə də bağlı bir sıra problemlər mövcuddur. Baxmayaraq ki, biz bir neçə il bundan əvvəl nəqliyyat vasitələrinin texniki baxışdan keçməsi ilə bağlı çox mütərəqqi bir dəyişiklik etmişik. Tam yeni avtomobillər uzun müddət texniki baxışdan keçməyə bilər, sonrakı hallarda isə texniki baxışdan keçmə müddətləri mövcuddur, yəni iki ildən sonra, daha köhnə maşınlar isə

bir ildən bir yoxlanılmalıdır.

Layihədə təklif olunur ki, bu cür xəta foto və video qeydiyyat funksiyalarına malik olan xüsusi texniki vasitələrin köməyi ilə aşkarlanan xətaların siyahısına daxil edilsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa buyursun.

**F.Mustafa**. Təşəkkür edirəm. Mən bu dəyişikliklərin tərəfdarıyam. Hesab edirəm ki, uyğun dəyişikliklərdir. Amma prinsip olaraq yol hərəkəti qaydaları ilə bağlı son vaxtlar bizim qanunvericilikdə intensiv dəyişikliklərin aparılması məsələsinə münasibət bildirmək istəyirəm. Biz bütün yükü üç subyektin – birincisi, maaşı kifayət qədər az olan, yayın istisində və qışın soyuğunda çox sayda maşın kütləsini idarə etməkdə, yol hərəkətini tənzimləməkdə böyük çətinlik çəkən yol polisinin, ikincisi, ictimai nəqliyyatın bərbad vəziyyətdə olması səbəbindən ancaq maşınlarla, avtomobillərlə çalışan sürücünün və bir də maşını olmadan hərəkət eləyən piyadanın üzərinə qoymuşuq. Yəni həmişə bu üç subyektin cəzasını artırırıq. Yaxud da törədilən inzibati hüquqpozmaya görə onların müəyyən qədər vəsait ödəməsi ilə bağlı yolları daha çox asanlaşdırmağa çalışırıq ki, dövlət büdcəsinə də vəsait, pul gəlsin.

Bayaq danışmaq imkanım olmadığına görə qeyd eləyə bilmədim. Büdcədə 2 milyard artım olub. Mən sizə bir faktı xatırlatmaq istəyirəm ki, iki il öncə deyirdilər, mənim millət vəkili seçildiyim Bakıxanov qəsəbəsində metro açılacaq. İki il keçib, ölkədə metronun tikintisinə vəsait ayrılmır. Bunu budəfəki büdcə artımında da görmədik. Artıq Xırdalan yolu ilə bağlı məsələ gündəmdədir. Təbii ki, yol düzəldilməlidir, genişləndirilməlidir, biz də bunun tərəfdarıyıq, amma əhalinin çəkdiyi zülmü biz, doğrudanmı, görmürük? Minlərcə insan küçədə yesir vəziyyətində qa-

lıb, hara getsin, necə getsin, alternativ yol yoxdur. Niyə böyük əksəriyyət maşından istifadə edir? Çünki ictimai nəqliyyat yararlı vəziyyətdə deyil. Baxın, Türkiyədə – İstanbul şəhərində metrodan enib istənilən yerə, təyinat məntəqəsinə tramvayla çata bilirsən. Üstəlik, avtobuslar üçün ayrıca yol xətləri çəkilib və o xətlərlə heç bir nəqliyyat vasitəsinə mane olmadan getmək mümkündür. İnfrastruktur nə qədər yaxşı olsa da, nə qədər yeni avtobuslar daxil olsa da, maşınlarla eyni yolu gedirlər, həm tıxac yaradır, həm də imkan yoxdur, işıqforda gözləməlidir, o da müxtəlif problemlər yaşayır. Beləcə, işə, təyinat məntəqəsinə vaxtında çatmaq problemə çevrilir.

Ona görə də, həqiqətən, gəlirlər varsa, dövlətin vəsaitinin müəyyən hissəsi metro tikintisinə ayrılmalıdır. Bir ildən sonra Bakı fəlakət vəziyyətində olacaqdır. Bunu artıq indidən görmək lazımdır. Bir yol bağlanıb, bütün əhali tıxac əlindən zinhara gəlir. Belə şey olmaz. Bunun qarşısını almaq, indidən tədbir görmək lazımdır. Ağırlığı dəyişikliklərlə yönəldirik ki, piyada bu qədər ödəməlidir, sürücü bu qədər ödəməlidir. Bəs alternativ yol olmayandan sonra sürücü nə eləsin? Tutaq ki, əhali kasıbdır, sosial təminatı aşağıdır, avtomobili yoxdur. Metrodan istifadə eləmək üçün, – Bakıxanov qəsəbəsini misal çəkim, – oradan mütləq 20-30 qəpik verib metroya, əlavə olaraq o qədər də vəsaiti metroya da verib şəhərə gəlməlidir. Bir iş yerinə gəlmək üçün iki marşrut dəyişərək o qədər vəsait xərclənməlidir. Azərbaycanda, heç olmasa, metro nəqliyyatını sürətlə inkişaf etdirmək lazımdır.

Hava limanına baxın. Dünyanın hər yerində hava limanına metro ilə gedə bilirsən, bizdə isə aztəminatlı adam belə mütləq taksi ilə getməlidir. Nədir, bu kiminsə marağına uyğun olur-olmur, başa düşə bilmirəm. Hava limanı-

na metro xəttinin çəkilməsini gündəmə gətirmək lazımdır. Ona görə, məncə, bu dəyişiklikləri etməklə prinsip olaraq yükü daha imkansız kütlənin, subyektlərin üzərinə qoymaq əvəzinə, məqsədyönlü dövlət proqramı olmalıdır və bu sahələr inkişaf eləməlidir ki, vətəndaşlar bu cür çətinliklərlə qarşılaşmasınlar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Fəzail Ağamalı.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli millət vəkilləri! Oqtay müəllim, ola bilər, bir az kənara çıxım, üzürlü hesab edin. Vacib bir məsələyə diqqəti yönəltmək istəyirəm. Biz 3 gündür həmin yollarla gedib-gəlirik. 20 Yanvar dairəsində Masazır istiqamətində dəhşətli bir vəziyyət hökm sürür və o istiqamətdə maşınların hərəkəti üçün alternativ yol da yoxdur. İctimai nəqliyyat şəxsi nəqliyyata qarışıb. Elə bir vəziyyətdir, sadəcə, söz tapa bilmirsən ki, buna necə qiymət verəsən. Qanunvericilik aktlarına bu cür dəyişikliklər edəndə, təbii ki, hər bir strukturun məsuliyyətini artırırıq, onun öhdəsinə müəyyən dərəcədə ciddi vəzifələr qoyuruq, onu pozanlara qarşı İnzibati Xətalar və Cinayət Məcəlləsində konkret müddəalar var, onları təkmilləşdiririk. Nəyə görə yolçəkənlərin məsuliyyətini və onların çəkmiş olduğu yolların standartlara nə dərəcədə uyğun olub-olmadığını müəyyənləşdirə biləcək bir mexanizm yoxdur? Həmin yol 4 il bundan qabaq çəkilib. Dünən bir jurnalist deyir ki, yol 4-5 ildən bir dəyişilməlidir, çünki orada çatlar var. Mən tam məsuliyyətlə deyə bilərəm ki, çat-zad yox idi, hər gün gedirik. Nə çat var? Bunu hansısa bir məqsədlə edirlər. Camaat da dəhşətli əziyyət içərisindədir.

Hörmətli Sədr, mən bu yaxınlarda Naxçıvana getmişdim, orada o qədər yüksək yol mədəniyyəti, o qədər yüksək standartlara uyğun yollar çəkilib ki, istənilən kəndə

gedəndə, – artıq 5–10 ildir ki, gedirəm, – bir yamağa rast gəlməmişəm. Çünki o yollar standartlara uyğun çəkilib. Yolların kənarında şəraitə uyğun olaraq əkilən meyvə ağacları, dekorativ ağaclar adamın gözünü oxşayır. Bakıda, ölkənin müxtəlif regionlarına birləşən yolların ətrafında bunlar yoxdur. Yeri gəlmişkən, mən təklif edirəm ki, bu işlə məşğul olanlar Naxçıvana gedib o təcrübəni öyrənsinlər ki, yolu necə çəkmək və yola necə xidmət etmək lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çəkilən yollara nə etiraz var ki? İndi çox yüksək səviyyədə yollar çəkilir. Sən Bakı şəhərini, maşınların sayını bir az fikirləş, bunlar çox böyük məsələlərdir. Mən də Sulutəpə tərəfdə yaşayıram və o əziyyətləri mən də çəkirəm. O yolların enlənməsi məsələsi durur, ətrafda da evlər tikilib. Gərək evlərin yarısı sökülsün ki, yollar genişləndirilsin. Müəyyən problem məsələlər var, amma bunların üzərində iş gedir. Xahiş edirəm, gündəliyin 28-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Gündəliyin 29-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Ancaq bir şeyi deyim, tənəffüssüz işləyirik, çatmasaq, davam edəcəyik, çünki bu məsələləri qurtarmalıyıq. Etiraz yoxdursa, tənəffüssüz işləyək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Gündəliyin 30–33-cü məsələləri də bir zərflə daxil olub. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında. Buyursun Əli Hüseynli. Siz birlikdə deyəcəksinizmi?

**Ə.Hüseynli**. Çox sağ olun, cənab Sədr. Bu layihələrin mahiyyəti haqqında qısaca məlumat vermək istəyirəm. Bizim qanunvericiliyə görə, məhkəmə əmrinin və ya notarius tərəfindən aparılmış icra qeydinin tətbiqi əsasları eynidir. Həm "Notariat haqqında" Qanunda, həm də "İcra haqqında" Qanunda var. Məhkəmə mübahisəsi predmeti mövcud olmadığı hallarda artıq icra məmuru da icra qeydi əsasında bu addımları ata bilər. Layihə məhz bu baxımdan təqdim olunmuşdur. Onun qəbul olunması ilə bir sıra məhkəmələrin iş yükünün azalmasına nail ola bilərik. Çünki faktiki olaraq həmin öhdəliklər notariusun icra qeydi ilə həyata keçirilə bilər. Bununla yanaşı, təklif olunan layihədə icra məmurları tərəfindən icra qeydinin icra edilməməsinə görə məsuliyyət də artırılır. Yəni bir tərəfdən bu hüquq verilir, digər tərəfdən isə icra qeydinin icra məmuru tərəfindən icra edilməməsinə görə məsuliyyət artırılır. Bu baxımdan bu layihələrə səs verməyinizi xahiş edirəm. Bir daha vurğulamaq istəyirəm ki, belə bir

qanunun qəbulu məhkəmələrin də iş yükünün azalmasına gətirib çıxaracaqdır. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Əgər başqa fikir yoxdursa, xahiş edirəm, gündəliyin 30-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 31-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 32-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
33-cü məsələyə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
34–35-ci məsələlər bir zərflə gəlib. İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında və "Yol hərəkəti haqqında" Qanunda dəyişikliklər. Əli Hüseynli buyursun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, cənab Prezidentin 2018-ci il 2 fevral tarixli fərmanı ilə Bakı Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tapşırıqlar verildi. Hazırda nəqliyyat vasitələri üçün dayanacaq məntəqələri, parklanma yerləri, taksi, minik avtomobilləri üçün dayanacaq yerləri Bakı Nəqliyyat Agentliyinin idarəsinə verilmişdir. Qanuna təklif olunan dəyişiklik isə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləridir. Söhbət burada Bakı Nəqliyyat Agentliyindən gedir. Biz bu ifadəni bu Qanunda təsbit edirik. Qanunun qüvvəyə minməsi ilə bağlı növbəti bir fərman olacaq. Bütün bu səlahiyyətlər artıq Bakı Nəqliyyat Agentliyində öz əksini tapacaqdır. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Cavid Qurbanov.

**C.Qurbanov.** Oqtay müəllim, təşəkkür edirəm. Siz

bayaq yol haqqında deyilənlərə cavab verdiniz. Mən bir az gözlədim, istəyirəm, cavab verim. Təkcə Bakı şəhərinin yollarında görülən işləri görməmək adama bir az pis təsir edir. Amma bir şeyi diqqətə çatdırmaq istəyirəm ki, Bakı şəhəri Abşeron yarımadasında yerləşir və Abşeron yarımadasının 3 tərəfi sudur. Ora hansı tərəfdən gedirsənsə, qayıdıb oradan da çıxmaq lazımdır. Ona görə yolların bir növ, deyək ki, ətrafa paylanma məsələsi çətindir, yəni bizim Bakıdan çıxışımız, demək olar ki, 2 yerdən – biri Bibiheybət tərəfdən, digəri də bu tərəfdəndir. Başqa yerdən çıxışımız yoxdur. Ayrı şəhərlərdə ətraflardan çıxışdır. Ona görə bu çətinliklər əmələ gəlir. Amma “Bakıda iş görülmür, yol çəkilmir” fikri bir az düz deyil. Rusiya Federasiyasının Prezidenti öz adamlarını yığıb deyib ki, “Gedin, Bakıda bakılılardan yol çəkməyi öyrənin”. Bizim yoldaşlar isə deyirlər ki, “Yol çəkə bilmirlər”. Hazırda yolçəkənlər çox yaxşı və keyfiyyətlə işləyirlər. Çətinliklər var, amma bu həmişə çətinlikdən sonra əmələ gəlir.

O ki qaldı Fazil müəllimin qaldırdığı metro ilə əlaqədar məsələyə, cənab Prezidentin sərəncamı var, tapşırığı var, pul ayrılıb. Bakı şəhərində dəmir yolu nəqliyyatının inkişafı, keçmiş loru dildə desək, “elektriçka”ların inkişafı ilə əlaqədar olaraq Bakı-Sumqayıt yolunda 26 yeni stansiya tikiləcək. İlin axırına qədər artıq Sabunçu stansiyasından, Pirşağı stansiyasından keçməklə sürətli qatarlar, elektrik qatarları işləyəcək. Ondan sonra Nargilə dairəsinə qədər çəkiləcək və həmin “hava limanı” deyilən yerə qədər olan layihələr artıq qurtarıb. Elektrik qatarı o yolun üzərindən 2 kilometr dönməklə şəhərin mərkəzinə, yəni 28 Maya qədər hərəkət edəcək. Bu məsələlər gedir.

Metro ilə əlaqədar deyilən məsələyə gəlincə, metronun xərci həddən artıq böyükdür. Ona görə biz çalışırıq,

yerüstü nəqliyyata, yəni yerüstü qatarlara daha çox üstünlük verilsin. Çünki bu, daha az xərclə, amma daha keyfiyyətli ola bilər. Bu formada edə bilərik. Bunu demək istəyirdim. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, 34-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 35-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 2 məsələ Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında və Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Cənab Sədr, İnzibati Prosessual Məcəlləyə təklif edilən dəyişiklik bizim vaxtilə qəbul etdiyimiz və geniş müzakirələrə səbəb

olmuş "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Qanun ilə bağlıdır. Bilirsiniz ki, o zaman Sizin də tapşırığınız və tövsiyələriniz oldu, işçi qrupu onları tam nəzərə aldı. Milli Məclisin deputatının mandatdan məhrum edilməsi haqqında qərar Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul olunur. Bu qanun qəbul edilib, qüvvədədir. Amma hörmətli millət vəkilləri bu qərarın mübahisələndirilməsi ilə bağlı təkliflər verirlər. Təklif ondan ibarət idi ki, mandatdan məhrum edilmiş millət vəkili Mərkəzi Seçki Komissiyasının qərarını mübahisələndirə bilməlidir və onun məhkəmə müdafiəsi olmalıdır.

Cənab Sədr, Sizin də tövsiyələriniz nəzərə alındı, işçi qrupu bu təkliflər üzərində işləmişdi. Digər qanunvericilik subyekti ilə müzakirələr aparıldı. İndi cənab Prezident tərəfindən təklif olunan layihə, hesab edirəm ki, bütün bu məsələləri həll etmiş formadadır. Belə ki, bu qərarın mübahisələndirilməsinə dair iddia üzrə icraat, xüsusiyyətlər burada qeyd olunur. Milli Məclisin deputatı bu qərardan 10 gün müddətində iddia ərizəsini apellyasiya instansiyası məhkəməsinə verə bilir. Bu məsələyə 15 gün müddətində baxılmalıdır. Sonra 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər və nəhayət, Ali Məhkəmə də 15 gün müddətində baxıb qərar qəbul edir. Beləliklə, mandatdan məhrum oluna biləcək millət vəkilinin bu qərardan tam məhkəmə müdafiəsi, yəni ikipilləli apellyasiya və Ali Məhkəmə səviyyəsində müdafiə mexanizmi yaradılır. Hesab edirəm, bununla da biz hörmətli millət vəkillərinin təkliflərini nəzərə almış oluruq. Ona görə, cənab Sədr, həmkarlarımdan da bu layihəni dəstəkləmələrini, səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, 36-cı məsə-

ləyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.12 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 37-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.12 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti, 38-ci və 39-cu məsələlər “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” qanunlarda dəyişikliklər edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, məlumdur ki, qanunvericiliyə müvafiq olaraq hakimlərin fəaliyyəti Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndirilir. İlk dəfə hakim vəzifəsinə təyin olunmuş şəxslərə münasibətdə qeyd edilən məsələ qanunvericiliklə birbaşa tənzimlənir. Yəni bizim hər 2 qanunda – “Məhkəmə-Hüquq Şurası haqqında” və “Məhkəmələr və hakimlər haqqında” qanunlarda ilk dəfə hakim vəzifəsinə təyin olun-

muş şəxslərin qiymətləndirilməsi ilə bağlı müddəalar var. Amma səlahiyyətləri son yaş həddinədək uzadılmış və fəaliyyəti 5 ildə bir dəfədən az olmayaraq qiymətləndirilən hakimlərə münasibətdə qanunvericilikdə qeyri-müəyyənlik mövcuddur. Məhz bu qeyri-müəyyənliyi aradan qaldırmaq məqsədi ilə Azərbaycan Respublikasının Ali Məhkəməsi qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək bu layihəni təqdim etmişdir.

Müzakirəyə çıxarılan bu qanun layihələrində qiymətləndirmə nəticəsində fəaliyyətində peşəkar çatışmazlıqlar aşkar edilmiş hakimin fəaliyyətinin ilk dəfə hakim təyin edilmiş şəxslər istisna olmaqla, Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilmiş vaxtda təkrarən, lakin 6 aydan tez və 2 ildən gec olmamaqla qiymətləndirilməsi və təkrar qiymətləndirmə zamanı fəaliyyətində yenidən peşəkar çatışmazlıqlar aşkar edilmiş hakimin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi nəzərdə tutulur. Yəni bir daha vurğulayıram, ilk dəfə təyin olunmuş hakimlərlə bağlı mexanizm mövcud idi – qiymətləndirmə, amma son yaş həddinə qədər olan hakimlərlə bağlı belə bir mexanizm yox idi.

Ali Məhkəmənin plenumunun müzakirə etdiyi, sonradan isə qanunvericilik təşəbbüsü subyektinin təqdim etdiyi layihənin mahiyyəti bundan ibarətdir. Hesab edirəm ki, məhkəmələrin fəaliyyətinin tənzimlənməsi baxımından əhəmiyyətli bir layihədir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli millət vəkilləri, media nümayəndələri! Əlbəttə, bu, hər halda müsbət təklifdir. Hesab edirəm ki, hakimlərin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edən bir məsələdir. Amma hesab edirəm ki, bu dəyişikliklər problemi tam həll etmir. Mən bundan əvvəl də məsələ qaldır-

mışdım ki, Azərbaycanda məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması istiqamətində ciddi islahatlar aparılmalıdır, o cümlədən "Məhkəmələr və hakimlər haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlar yenidən işlənməlidir və ciddi dəyişikliklər edilməlidir.

1985-ci ildə məhkəmələrin müstəqilliyinə dair BMT-nin Baş Məclisi tərəfindən yekdilliklə qəbul olunmuş əsas prinsiplər müəyyən olunub. Həmin prinsiplərin 10, 11 və 12-ci maddələri hakimlərin seçilməsi, təyin edilməsi, vəzifədə irəli çəkilməsi ilə bağlı məsələləri həll edir. Misal üçün, BMT-nin İnsan hüquqları komitəsinin Ermənistanla bağlı qərarında qeyd olunur ki, Ermənistanda məhkəmələr müstəqil deyil, ona görə ki, hakimlər 6 il müddətinə təyin olunurlar. Bu da onların məhkəmə hakimiyyətinin müstəqilliyini ciddi şəkildə şübhə altına alır. Bizdə isə hər 5 ildən bir hakimlərin fəaliyyətinin qiymətləndirilməsindən söhbət gedəcək, daha doğrusu, gedir. İndiyə qədər belə olub və peşəkar çatışmazlıqlar aşkar edildikdə həmin hakim vəzifəsindən kənarlaşdırılıb.

İndi isə onlara müəyyən müddətdən sonra ikinci dəfə şans verilir. Təkrar yoxlama zamanı yenə də peşəkar çatışmazlıqlar aşkar olunarsa, o halda onlar vəzifədən azad ediləcəklər. Amma burada söhbət ondan gedir ki, hakimlər seçilib yerləşdirilərkən ciddi şəkildə imtahan verirlər, sonra təlim kurslarına göndərilirlər. Əvvəllər hakimlər yaşı 30-a çatmış, ən azı 5 il hüquqşünas işləmiş şəxslər sırasından seçilirdilər. Yəni burada peşəkar çatışmazlığı olan hakimin olması imkanları xeyli dərəcədə məhduddur. Peşəkar çatışmazlıq dedikdə, ümumiyyətlə, söhbət nədən gedir? Söhbət bundan gedir ki, belə olduqda intizam icraatı başlanır. Hakimlər mülki işlərə, cinayət işlərinə 3 nəfərdən ibarət tərkibdə baxırlar. Onlar hansısa qanunu,

ümumiyyətlə, prosessual qanunvericiliyin tələblərini pozurlarsa, bu halda, dediyim kimi, məhkəmə prosesində iştirak edən tərəflər – prokuror, müdafiə tərəfi var, onlar müdaxilə edirlər. Orada 3 hakim iştirak edir, əgər sədrlik edən hansısa qanun pozuntusuna yol verirsə, digər hakimlərin o prosesə müdaxilə etmək hüquqları var, sonra ədalətsiz hökm, qərar, qətnamə qəbul olunursa, xüsusi rəydə qalmaq imkanları var və sair.

Yəni məhkəmə prosesində bu qanun pozuntularının qarşısının alınması imkanları çox genişdir. Sadəcə olaraq, 5 ildən bir qiymətləndirmənin keçirilməsi hakimləri tamamilə asılı vəziyyətə salır. Ona görə də hesab edirəm ki, əgər hakimlər təyin olunurlarsa, bu qiymətləndirmə məsələsi aradan qalxmalıdır. Əgər hakim qanun pozuntusuna yol verirsə, onun hərəkəti ilə bağlı şikayət edilirsə, o şikayət araşdırılmalıdır. Nəticədə bəlli olsa ki, şikayət edən şəxsin hüquq və mənafelərinə mühüm zərər vurulub, belə halda bizim Cinayət Məcəlləsinin 308-ci maddəsi var. Vəzifə səlahiyyətlərindən kimsə sui-istifadə edirsə, bunun nəticəsində də dövlətin mənafeyinə, vətəndaşların, fiziki şəxslərin, hüquqi şəxslərin mənafelərinə mühüm zərər vurulursa, bu, cinayət məsuliyyəti yaradır. Yaxud hakim vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə yanaşı, məhkəməyə hörmətsizlik edirsə, yəni özünü pis aparırsa, bu da cinayət məsuliyyəti yaradan bir əməldir. Yaxud 313-cü və 314-cü maddələr – vəzifə saxtakarlığı, səhlənkarlıq, – əgər hakim bunları edirsə, yenə də vəzifəli şəxs kimi məsuliyyətə cəlb oluna bilər. Biz yalnız cinayət törətdiyi halda, hakimlərin vəzifədən kənarlaşdırılması məsələsini qanuna daxil etməliyik.

İkincisi, yaş həddi ilə bağlı məsələ. 2 gün bundan qabaq Amerika Birləşmiş Ştatlarında Ali Məhkəmənin üzvü An-

toni Kennedi 81 yaşında istefa verdi. Yəni yenə də deyirəm, BMT-nin müvafiq tələblərinə uyğun, qeyd etdiyim kimi, yekdilliklə qəbul olunmuş sənəd var. Hakimlərin müstəqilliyindən o halda söhbət gedir ki, ya ömürlük təyin olunurlar, ya da konkret bir yaş həddi müəyyənləşdirilir ki, onlar bu yaşa qədər fəaliyyət göstərirlər. Bizdə indi 68 yaş müəyyən olunub. Hesab edirəm ki, bu yaş həddi azdır. Bunu ən azından 75 yaşa qədər qaldırmaq lazımdır, ya da hakimlər ömürlük təyin olunmalıdır. Onsuz da onlar işləyə bilmədikdə özləri istefa verəcəklər.

Oqtay müəllim, məsələn, mən 1998-ci ildə Amerika Birləşmiş Ştatlarında olanda bir hakimdən soruşdum ki, hakimlərin fəaliyyət dövrü sizdə ömürlükdür, birdən hakim səhhəti ilə bağlı işləyə bilmir, amma istefa da vermirsə? Dedi, mən səni başa düşmədim. Bir də izah elədim, yəni mentalitet fərqli olduğuna görə. Dedi, necə yəni, xəstədir, işləyə bilmir, amma istefa da vermir? Dedim, oldu da, vermədi, onda nə olacaq? Dedi, onda yəqin ki, bizim kollegiyanın üzvlərindən biri ona yaxınlaşıb deyər ki, səhhətin imkan vermirsə, ərizə yaz. Dedim ki, bəs onda da istefa verməsə, nə olacaq? Baxdı, dedi ki, mən Sizi heç cür başa düşə bilmədim. Bu baxımdan demək istəyirəm ki, insanlar işləyə bilməyəndə özləri ərizə yazıb gedəcəklər. Amma biz 5 ildən bir hakimlərin fəaliyyəti ilə bağlı qiymətləndirmə keçirib, guya peşəkar çatışmazlığına görə Məhkəmə-Hüquq Şurasına onları vəzifələrindən kənarlaşdırmaq imkanı veririksə, hakimlərin tam müstəqilliyini əlindən alırıq.

Azərbaycanda mövcud problem, birincisi, hazırda məhkəmə sistemində hakimlərin sayının az olmasıdır, ikincisi, hakimlərin əmək haqlarını kifayət qədər artırmaq lazımdır. Burada qeyd etmişdim, BMT-nin müəyyən etdiyi prinsiplərdən 7-ci prinsip ondan ibarətdir ki, hakimlər maddi ba-

xımdan asılı olmamalıdır, onlara ləyaqətli həyatlarını təmin etmək üçün yüksək əmək haqqı verilməlidir.

Mən düşünürəm ki, Azərbaycanda da hakimlərin müstəqilliyinin təmin olunması üçün, bax, bu dediyim addımlar atılmalıdır. Hakim təyin olundusa, onun fəaliyyətinin neçə ildən bir qiymətləndirilməsi məsələsi qanunvericilikdən çıxarılmalıdır. Bu, hakimlərin müstəqilliyinə ciddi şəkildə zərbə vurur. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ ol. Sən özün bəzi suallarına cavab verdin. Mentalitetdən, istefadan danışdın. Sən inanırsan ki, bizdə istefa verən olacaq? Özün öz dediyinə inanmırsan. Bu məsələlərin bəzilərinə özün cavab verdin. Ziyafət Əsgərov.

**Z.Əsgərov**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Qüdrət müəllim, mən bir məsələni – burada dəyişikliyin mahiyyətinin nədən ibarət olduğunu nəzərinizə çatdırmaq istəyirəm. Əvvəla, Siz bilirsiniz, biz sessiyamızın bütün iclaslarında bu və ya digər qanunvericilik aktlarında dəyişikliklər edirik. Onların peşəkarlığı ilə bağlı fəaliyyəti 5 ildən bir qiymətləndirilirsə, bu, tamamilə normal bir şeydir. Əgər hakim arxayın olub, öz üzərində çalışmırsa, cinayət qanunvericiliyini, mülki qanunvericiliyi, inzibati cinayət qanunvericiliyi aktlarını oxumursa, onda nəticədə kim ziyan çəkir? Əlbəttə, insanlar ziyan çəkir. İnsanların hüquq və azadlıqları məsələsi ortaya çıxır. Bu, müəllimlərdə də, dövlət qulluqçularında da var. Bəs hakimin fəaliyyətini qiymətləndirməsək, o da öz üzərində işləmirsə, o bizim hüquq və azadlıqlarımızı necə qoruyacaq? Burada qeyri-adi bir şey görmürəm.

Özünüz də görürsünüz ki, bizim beynəlxalq əməkdaşlığımız ildən-ilə artır, qanunvericiliyimizə yeni institutlar daxil olur. Məsələn, bayaq Əli müəllim probasiya fəaliyyəti ilə bağlı qeyd elədi. Probasiya institutu bizim qanun-

vericilikdə yeni bir institutdur. İndi hakim probasiya institutunun mahiyyətini, məzmununu dərk eləmirsə, o necə işləyəcək, yaxud icra məmuru necə işləyəcək? Hesab edirəm ki, bundan qorxmaq lazım deyil, əksinə, bu, təkcə hakimlərlə bağlı deyil, dövlət qulluğunda olan digər şəxslərə, müəllimlərə, həkimlərə də aiddir. Onlar da 5 ildən bir attestasiyadan keçirlər. İnsan gərək öz üzərində çalışsın, yoxsa elə bir dəfə təyin olundu, vəssalam. Ömrünün axırına qədər "hakiməm" deyir, heç nə ilə məşğul deyil, öz üzərində çalışmır, o necə işləyə bilər ki? Mən, sadəcə, bunu dərk eləyə bilmirəm. Ona görə burada qeyri-adi bir şey yoxdur, bu, normal məsələdir. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, 38-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.24 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

39-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.25 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi və nəhayət, növbədənkənar sessiyamızın sonuncu məsələsi. "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi avtonəqliyyat vasitələri üçün verilən dövlət qeydiyyat nişanında əks olunmuş rəqəmlərin və ya hərflərin kombinasiyasına uyğun olaraq dövlət qeydiyyat nişanlarının verilməsinə görə dövlət rüsumunun məbləğinin hərrac yolu ilə müəyyən olunması, daşınmaz əmlakın özgəninkiləşdirilməsi üzrə müqavilələrin təsdiqi üçün rüsumların dəyişdirilməsi məqsədi ilə hazırlanmışdır. Bu məqsədlə "Dövlət rüsumu haqqında" Qanunun 10.1.2-ci maddəsinə "Müqavilə üzrə əmlak başqa şəxslərin mülkiyyətinə keçirsə – 250 manat", 11.3-cü maddəsinə "Bu Qanunun 10.1.2-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun Bakı şəhəri üzrə 100 faizi, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə 70 faizi, digər rayonlar üzrə isə 50 faizi ödənilir" sözləri əlavə edilir.

18.65.5.1-ci maddədə "18" rəqəmi "25" rəqəmi ilə əvəz edilir.

18.65.6.1-ci maddə aşağıdakı redaksiyada verilir:

"Avtonəqliyyat vasitələri üçün verilən dövlət qeydiyyat nişanında əks olunmuş rəqəmlərin və ya hərflərin kombinasiyasına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən dövlət qeydiyyat nişanlarının verilməsinə görə dövlət rüsumunun məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada keçirilən hərrac nəticəsində müəyyən olunur".

18.65.6.2-ci maddə aşağıdakı redaksiyada verilir:

"Bu qanunun 18.65.6.1-ci maddəsində nəzərdə tutulmuş dövlət qeydiyyat nişanları istisna olmaqla, avtonəqliyyat vasitələri üçün digər dövlət qeydiyyat nişanlarının verilməsinə, habelə dövlət qeydiyyat nişanının təkrar verilməsinə görə – 35 manat".

Bu qanunun 1.5 və 1.6-cı maddələri "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa dövlət qeydiyyat nişanının hərrac vasitəsi ilə verilməsinə dair ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minir. Millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Hörmətli Ziyad müəllim, Sizin dediklərinizin hamısı millət vəkillərində var idi, oxuyurlar. Siz məğzini deyin, qurtarsın da. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli millət vəkilləri, bununla da növbədənkənar sessiyamız sona çatdı. Çox sağ olun, hörmətli millət vəkilləri. Bir azdan məzuniyyətlər başlayır, hamınıza xoş istirahətlər arzulayıram. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## *29 iyun 2018-ci il*

**Azər Badamov.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Dövlət büdcəsinə yenidən baxılması ilə bağlı təqdim olunmuş qanun layihəsini dəstəkləyirəm. Təqdimatdan da göründüyü kimi, yola saldığımız 4 ay ərzində ölkədə büdcə siyasəti düzgün həyata keçirilmiş, büdcənin gəlirlər hissəsi proqnozda nəzərdə tutulandan artıqlaması ilə yerinə yetirilmişdir. Xərclərin isə lazımi istiqamətlərə düzgün yönəldilməsi nəticəsində əldə olunmuş 653 milyon manat büdcə profisitini müsbət hal hesab edirəm. Büdcə gəlirlərinin çoxalması yeni üfüqlərin açılması deməkdir.

Dünya bazarlarında neft və qazın qiymətinin artması ölkənin gəlirlərini artırmış və bu da müzakirə etdiyimiz dövlət büdcəsində neftin qiymətinin 45 dollardan 55 dollara qalxmasına imkan yaratmışdır. Təbii ki, neftin qiymətinin qalxması gəlirlərimizi artırır, amma büdcədə neftin qiymətinin yuxarı nəzərdə tutulması isə dövlət büdcəsinin imkanlarını genişləndirir. Düzgün olaraq dövlət büdcəsində ediləcək dəyişiklik nəzərdə tutulan və icra olunan layihələrin həcmini genişləndirəcək ki, bu da ölkəmizin həm iqtisadi, həm də sosial sferasını əhatə edəcəkdir. Nəticədə isə məqsəd ölkəmizin sosial iqtisadi inkişafını sürətləndirməkdir.

Təqdim olunmuş qanun layihəsində dövlət büdcəsində nəzərdə tutulmuş əlavə gəlirlər və xərclər maddələrlə aydın şəkildə göstərilmişdir və mən ayrı-ayrılıqda yenidən sadalamaqla vaxtınızı almayacağam. Amma xərclər qrafasında bir məqam diqqətimi çəkdi və onu qeyd etmək istəyirəm. Cənab Prezidentin də qeyd etdiyi kimi, ilin sonuna

qədər ölkənin qazla təmin olunmasını 95 faizə çatdırmağı planlaşdırmışıq. Əhalinin təbii yanacaqla təminatı üçün yeni infrastrukturun tikilməsinə çoxlu vəsait sərf edilir. Təbii ki, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ölkəmizdə qaz, tikinti işlərini yüksək keyfiyyətlə icra edir və yeni yaşayış məntəqələrində qaz layihələrinin açılışlarını mütəmadi görürük. Görülməli işlər də kifayət qədər çoxdur və bunlar böyük maliyyə vəsaiti tələb edir.

Büdcə qanununda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti üçün nəzərdə tutulmuş 963,2 milyon manat ancaq istehsal prosesinə və "Azərenerji"yə, qazın idxalından yaranmış zərərin ödənilməsinə nəzərdə tutulmuşdur. Düşünürəm ki, ölkədə yeni qaz şəbəkəsinin tikintisinin sürətləndirilməsinə də vəsaitin əlavə olunmasına ehtiyac var və imkan daxilində bu maddəyə də maliyyənin əlavə edilməsini təklif edirəm.

Azərbaycan Hökuməti ilə Dünya Bankı arasında imzalanmış Azərbaycan İkinci Kənd İnvestisiya Layihəsi əsasında tədbirlər həyata keçirilir və bu tədbirlər məşğulluğun təmin olunması, insanların sosial vəziyyətinin, yaşayış səviyyəsinin yaxşılaşdırılması və əmək fəallığının artırılması sahəsində uğurlu olmuşdur. Bu layihə kənddə qadınların işə cəlb olunması, kəndin mədəni simasının yaxşılaşdırılması, kiçik biznes mühitinin formalaşdırılması baxımından da çox faydalıdır.

Bütün bunları nəzərə alaraq, Azərbaycan İkinci Kənd İnvestisiya Layihəsinə əlavə maliyyələşdirmə tələb olunmadan layihənin yekun tarixinin 6 ay da uzadılmasına köməklik göstərilməsini hörmətli maliyyə naziri Samir Şərifovdan xahiş edirəm. Əks təqdirdə Dünya Bankının bu layihənin icrası üçün ayrılacağı xeyli vəsaitdən kənarda qala bilərik.

**Eldəniz Səlimov.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Müzakirəmizə təqdim olunmuş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsini dəstəkləyirəm. Düşünürəm ki, düzgün qurulmuş iqtisadi siyasət və dünya bazarlarında neftin satış qiymətindəki artım bu günkü Büdcə haqqında Qanunda dəyişiklik edilməsinə zəmin yaratmışdır.

Düzgün hesablanmış büdcə ölkənin iqtisadi inkişafını təmin edir. Büdcəyə nəzərdə tutulan artımlar ölkənin ayrı-ayrı sektorlarında daha geniş həcmli işlərin görülməsinə imkan yaradacaq və bu da gələcəkdə büdcə gəlirlərinin artmasına və insanların rifah halının yaxşılaşmasına öz müsbət təsirini göstərəcəkdir. Onu da qeyd etmək istəyirəm ki, müzakirə etdiyimiz Büdcə haqqında qanun layihəsində nəzərdə tutulan artım birbaşa neftlə bağlıdır. Amma dövlət başçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, iqtisadiyyatımızı diversifikasiya etməliyik və qeyri-neft sektorunu inkişaf etdirməklə büdcəmizin neftdən asılılığını minimuma endirməliyik.

Son illər dövlət başçımızın tapşırığı ilə ölkəmizdə bir sıra iqtisadi islahatlar aparılmış, biznes mühitinin yaxşılaşdırılması və özəl sektorun inkişafı istiqamətində kifayət qədər əhəmiyyətli addımlar atılmışdır. Bu proses bu gün də davam edir.

Məhz cənab Prezidentin rəhbərliyi ilə görülən işlərin nəticəsidir ki, bu gün dövlət büdcəsinin formalaşmasında özəl sektordan gələn gəlirlər kifayət qədər əhəmiyyətli yer tutur. Düşünürəm ki, iqtisadi sahədə aparılan islahatlar davamlı olmalı, qanunlarda yeni dəyişikliklər edilməli və ölkəmizdə yaranmış əlverişli biznes mühitindən də dövlət büdcəmizə gələn gəlirlər artmalıdır.

Onu da qeyd etmək istəyirəm ki, vergilər naziri çox hörmətli Mikayıl Cabbarovun rəhbərliyi altında ölkəmizdə biznes mühitinin inkişafına xidmət edən yeni vergi siyasəti formalaşdırılır ki, bu da bu gün ümumilikdə qeyri-neft sektorunun inkişafında özünü göstərir. Düşünürəm, növbəti addım olaraq, Vergi Məcəlləsində müəyyən dəyişikliklər etməliyik ki, gələcəkdə büdcəmizi formalaşdıranda qeyri-neft sektorunun rolu daha da artsın.

Bununla əlaqədar bir neçə dəyişikliyi təklif formasında nəzərinizə çatdırmaq istəyirəm... İstehlak qiymətlərinin tərkibində yer alan ƏDV-nin dərəcəsinin diferensiallaşdırılması, yəni müxtəlif məhsullara müxtəlif ƏDV faiz dərəcəsi tətbiq edilə bilər. ƏDV-nin diferensiallaşdırılması üzrə Avstriya, Almaniya, Belçika, Böyük Britaniya, İsveç, Niderland, Türkiyə, Fransa, Çin və digər ölkələrin təcrübəsi var. Biz də bu beynəlxalq təcrübəni öyrənərək onu yerli qanunvericilik aktlarımıza və yerli şərtlərə uyğunlaşdırmaqla ölkəmizdə bunun praktik tətbiqinə başlaya bilərik. Elə məhsullar, elə maşın və texnoloji avadanlıqlar var ki, onlar üçün əlavə dəyər vergisinin 18 faiz olması olduqca yüksək göstəricidir. Azərbaycan üçün lazım olan avadanlıqlar, o cümlədən qida məhsullarının əlavə dəyər vergisini diferensiallaşdırılmış şəkildə həyata keçirmək, düşünürəm ki, hazırkı vəziyyətdə ölkə iqtisadiyyatının dinamik inkişafının qorunub saxlanmasına, həmçinin qiymət siyasətinə müsbət töhfəsini verə bilər.

Muzdla işləyən fiziki şəxslərin gəlirləri 2500 manatdan çox olduqda tutulan gəlir vergisinin dərəcəsinin 25 faiz dərəcəsindən aşağı salınması. Bir çox hallarda müşahidə edirik ki, bir sıra şirkətlər vergi yükünün azaldılması üçün yuxarı məbləğdə əməkhaqqı alan işçilərinin əməkhaqlarını düzgün şəkildə bəyan etməkdən yayınırlar.

Hesab edirəm ki, bu dəyişiklik işçilərinə yuxarı məbləğdə əməkhaqqı verən sahibkarların və iri şirkətlərin işçilərinin əmək haqlarını daha şəffaf şəkildə bəyan etməyə və gəlir vergisi  üzrə vergi daxilolmalarının artımına müsbət təsir göstərəcək.

Turizm, otelçilik fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin müəyyən müddətə (3-5 il) 10 faiz dərəcə ilə mənfəət vergisinə cəlb olunması və ya tamamilə azad olunması.

Son illərdə ölkə rəhbərliyinin xüsusi diqqət mərkəzində saxlanılan, ölkə iqtisadiyyatının diversifikasiyası siyasətində əsas yerlərdən birini tutan turizmin inkişafına dəstək vermək baxımından, düşünürəm ki, bu addımın atılması bu sahədə nəzərəçarpacaq dərəcədə inkişafa yol aça bilər. Bundan əlavə onu da qeyd etmək istəyərdim ki, vergi güzəştlərinin tətbiqi xarici inverstorların da ölkəmizin mövcud turizm potensialına marağının artmasına səbəb olacaqdır ki, bu da hər il ölkəmizə qoyulan xarici investisiya məbləğlərinin artımına müsbət təsir göstərərək ölkədə makroiqtisadi sabitliyin və maliyyə dayanıqlığının təmin olunmasına öz müsbət töhfəsini verəcəkdir.

Düşünürəm ki, təklif etdiyim dəyişikliklər ölkəmizdə sahibkarlığın inkişafına, vergidən yayınma hallarının azalmasına və dövlət büdcəsinə yığılacaq vəsaitlərin artmasına öz təsirini göstərəcəkdir.